# Hüquq münasibətlərinin anlayışı və fəlsəfəsi

**Nağıyev A.L. Hüquq münasibətlərinin anlayışı və fəlsəfəsi: monoqrafiya.**

**Birinci nəşr: Bakı 2022**

# Mündəricat:

**Ön söz ........................................................................................ 1**

**I Fəsil. Hüquq münasibətləri nəzəriyyəsinin əsasları ................................ 4**

**Hüquq elmlərinin anlayışlar sistemində hüquq münasibətlərinin yeri ....4**

**Hüquq münasibətlərinin tədqiq olunmasına sistemli yanaşma ................13**

**Hüquq münasibətləri nəzəriyyəsi və təcrübə ……........................................21**

**II Fəsil. Hüquq münasibətlərinin anlayışı ................................................…..29**

**Hüquq münasibətinin anlayışına dair yanaşmalar ....................................29**

**Hüquq münasibətlərinin əlamətləri………..........................................….44**

**Hüquq münasibətləri hüquq normalarının realizə forması kimi ………..52**

**III Fəsil. Hüquqi tənzimetmə sistemində hüquq münasibətinin yeri ........59**

**Nəticə ..........................................................................................................69**

**Resume (İngiliscə xülasə) ..........................................................................72**

**Ədəbiyyat siyahısı ......................................................................................74**

# ÖN SÖZ

Hüququn rolu və əhəmiyyətinin, cəmiyyətin həyatındakı yerinin yüksəldilməsi bu günün əsas vəzifələrindən biridir. İctimai münasibətlərin hüquqi tənzimlənməsinin gücləndirilməsi və möhkəmləndirilməsi cəmiyyətin həyatına səmərəli təsir vasitəsi kimi müasir mərhələdə mühüm əhəmiyyət daşıyır.

Hüququn ənənəvi sahələri ilə tənzim olunan münasibətlər əhəmiyyətli dərəcədə genişlənir və zənginləşir.

İqtisadiyyat və cəmiyyətin həyatının digər sahələri daima mürəkkəbləşir və hüquq elmləri, qanunvericilik və təcrübə qarşısında yeni vəzifələr qoyur.

Hüquq münasibətləri, hüquq münasibətlərinin anlayışı problemi hüquq nəzəriyyəsinin və bütövlükdə hüquq elminin fundamental problemlərindən biridir. Bu istənilən hüquqi problemin son nəticədə hüquq münasibətlərinin subyektləri arasındakı hüquqi əlaqədən doğan problem olması ilə müəyyən olunur. Buna görə də hüquq münasibətlərinin fəaliyyət mexanizmini aydın təsvir etmək üçün hər şeydən əvvəl hüquq münasibətlərinin anlayışını dərindən öyrənmək zəruridir.

Hüquq münasibətlərinin ictimai səciyyə daşıması hüquq elmində öz təsdiqini çoxdan tapmışdır. Hüquq münasibətlərinin daxili quruluşunun tədqiqatlarında heç də həmişə onun ictimai münasibətlərlə eyni təbiətə malik olması tədqiq olunmayıb. Nəticədə çox vaxt belə bir fakt nəzərdən qaçır ki, hüquq münasibətləri insanların hüquq və vəzifələri arasındakı sadə əlaqə deyil, hər şeydən əvvəl insanlar arasındakı münasibətdir, məhz bu nəzər nöqtəsindən çıxış edərək tədqiqat işində hüquq münasibətləri fenomeni ictimai münasibətlərin bir növü kimi tədqiq edilmişdir.

Hüquq elmində də bu problem kifayət qədər tədqiq edilməmişdir. Sovet hüquq ədəbiyyatında hüquq münasibətlərinin anlayışı probleminə həsr olunmuş ayrıca ədəbiyyat, monoqrafiya yoxdur. Yalnız hüquq münasibətlərinə aid ədəbiyyatlarda hüquq münasibətlərinin anlayışına həsr edilmiş paraqraflar mövcuddur. Bunların da əksəriyyəti monoqrafiya və dissertasiya işləridir. Belə ədəbiyyatlara misal kimi Y.K. Tolstoyun 1959-cu ildə nəşr edilən «hüquq münasibətləri nəzəriyyəsi haqqında» , R. O. Xalfinanın 1974- cü ildə nəşr edilən

«hüquq münasibətləri haqqında ümumi təlim», Y.Q. Tkaçenkonun 1980-cı ildə nəşr etdirdiyi «hüquq münasibətlərinin metodoloji məsələləri», A.P. Dudin tərəfindən 1983-cü ildə nəşr etdirilən «hüquq münasibətlərinin dialektikası» və s. bu kimi monoqrafiya və elmi işləri göstərmək olar. Göründüyü kimi bütün bu ədəbiyyatlar rus dilindədir və rus müəllifləri tərəfindən yazılmışdır. Azərbaycan dilində nəinki hüquq münasibətlərinin anlayışına, heç münasibətləri nəzəriyyəsinə həsr edilmiş ədəbiyyat yoxdur. Hüquq münasibətləri kimi əhəmiyyətli problemin tədqiqatçıların diqqət mərkəzindən kənarda qalması təəssüf doğurur. Bu mövzuda Azərbaycan dilində tədqiqatın aparılmaması və bu problemə həsr edilmiş rus ədəbiyyatlarının çox-çox əvvəllər yazılması hal-hazırda bu problemə yenidən baxılmasını şərtləndirir. Bu və digər səbəblər problemin təqdim edilən monoqrafiyada tədqiqat mövzusu kimi seçilməsində əsas rol oynamışdır.

Təqdim edilən bu monoqrafiyanın məqsədi tədqiqat üçün seçilmiş mövzunun hərtərifli öyrənilməsi, onun nəzəri, hüquqi və təcrübi aspektlərinin aydınlaşdırılması və bu mövzu haqqında müxtəlif nəzəriyyə və məktəblərin tədqiqatlarının nəticələrinin təhlil edilməsidir.

Mövzunun tədqiq olunmasında analiz, sintez, induksiya, deduksiya və mücərrədləşdirmə kimi ümumelmi metodlardan, habelə formal-hüquqi və müqayisəli hüquqşünaslıq kimi xüsusi elmi metodlardan istifadə edilmişdir.

Təqdim edilən bu monoqrafiya ön söz, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

Girişdə mövzunun aktuallığı əsaslandırılır, mövzuda istifadə edilən elmi metodlardan bəhs edilir.

Birinci fəsil üç paraqrafdan ibarətdir. Burada hüquq münasibətləri nəzəriyyəsinin metodoloji əsasları geniş tədqiq və təhlil edilmişdir. Birinci fəslin birinci paraqrafı Hüquq elmlərinin anlayışlar sistemində hüquq münasibətlərinin yeri adlanır. Birinci fəslin ikinci paraqrafı hüquq münasibətlərinin tədqiq olunmasına sistemli yanaşma adlanır. Bu fəslin üçüncü paraqrafı hüquq münasibətləri nəzəriyyəsi və təcrübə adlanır.

İkinci fəsil üç paraqrafdan ibarətdir. Bu fəsildə hüquq münasibətlərinin anlayışı müxtəlif ümumelmi və xüsusi metodlardan istifadə edilməklə öyrənilmişdir. İkinci fəslin birinci paraqrafı hüquq münasibətinin anlayışına dair yanaşmalar adlanır. İkinci paraqraf hüquq münasibətlərinin əlamətləri adlanır. İkinci fəslin üçüncü paraqrafı hüquq münasibətləri hüquq normalarının realizə forması kimi adlanır.

Üçüncü fəsil paraqpaflara bölünmür. Burada Hüquqi tənzimetmə sistemində hüquq münasibətlərinin tutduğu yerə aydınlıq gətirilir.

Nəticə hissəsində müəllifin iş üzrə gəldiyi nəticələr öz əksini tapmışdır.

Ədəbiyyat siyahısında mövzunun tədqiq olunmasında istifadə edilən monoqrafiyalar, dərsliklər, dərs vəsaitləri, məqalələr və qanunvericilik aktları göstərilmişdir.

## Fəsil I. Hüquq münasibətləri nəzəriyyəsinin metodoloji əsasları.

### Hüquq elmlərinin anlayışlar sistemində hüquq münasibətlərinin yeri.

Hüquq elminin inkişafının bütün mərhələlərində hüquq münasibətləri problemi təkcə ümumi dövlət və hüquq nəzəriyyəsi tədqiqatçılarının deyil, digər sahəvi hüquq elmləri tədqiqatçılarının da diqqətini cəlb etmişdir. Bu sahələrdən hər biri hüquq münasibətlərinin bu sahəsində hüquqi tənzimetmənin predmet və metodu ilə şərtlənən özünəməxsus cəhətləri müəyyən etməyə cəhd göstərmişlər. Müxtəlif sahələrdəki hüquqi tənzimetmənin xüsusiyyətləri-hüquq və vəzifələr, iştirakçıların tərkibi və və iştirakçılarının davranışına təsir vasitələri hüquq münasibətlərinin quruluşunda əks olunur. Müxtəlif hüquqi tənzimetmə sahələri tərəfindən hüquq münasibətlərinin tədqiq edilməsi predmet və metod əlaqələrini, ictimai münasibətlərin və onların hüquqi formasının ayrı-ayrı növlərinə münasibətdə obyektiv qanunauyğunluqları açmaq üçün geniş imkanlar verir. Hüquq münasibətlərinin ayrı-ayrı növlərinin xüsusiyyətlərinin tədqiq olunması hüquq münasibətlərinin tədqiq olunması hüquq münasibətlərinin ümumi nəzəriyyəsini zənginləşdirir, hüquq münasibətlərinin məzmunu və mahiyyətinin açıqlanmasına kömək edir.

Dövlət və hüquq nəzəriyyəsində hüquq münasibətləri probleminin öyrənilməsində, tədqiq olunmasında əsas diqqət onun anlayışına, hüquq norması ilə əlaqəsinə, ictimai münasibətlərin hüquqi nizamasalma sistemindəki yerinə, elementlərinə və məzmununa verilir. Xüsusilə hüquq münasibətlərinin obyekti, onun hüquq münasibətlərinin məzmunu ilə əlaqəsi, hüquq və vəzifələrin xarakteri, onun tərkibinə daxil olan məsələlər barədə uzun müddət qızğın müzakirələr getmişdir. Lakin bu müzakirələr nəticəsində hüquq münasibətləri nəzəriyyəsinin ümumqəbul edilmiş, təkzibolunmaz əsasları kifayət qədər aydınlaşdırılmamışdır. Hüquq münasibətlərinin anlayışı məsələsi barəsində gedən mübahisələr bəzən terminoloji səciyyə daşımış, bəzən isə ayrı-ayrı tədqiqat mövqeyindən irəli gələn müxtəlif metodologiyaların nəticəsi olmuşdur. Onu da qeyd etmək lazımdır ki,

mübahisə və müzakirələr müəyyən ənənəvi məsələlər çərçivəsində getmişdir. Buna görə də hüquq münasibətləri nəzəriyyəsinin çoxlu vacib problemləri ya diqqəti cəlb etməmiş, ya da kifayət qədər cəlb etməmişdir. Bu isə normal hal hesab edilə bilməz. Çünki fəlsəfə və digər ictimai elmlərin inkişafı hüquqi hadisələrin tədqiqatına geniş yanaşmaq imkanları verir, elmi tədqiqatın yeni-yeni metod və yollarının aşkarlanmasına şərait yaradır.

Hüquq münasibətləri nəzəriyyəsinin səmərəli inkişafı üçün birinci növbədə onun metodoloji əsaslarının işlənməsi, araşdırılması zəruridir. Hüquq elmlərinin anlayışlar sistemində hüquq münasibətlərinin yerini müəyyən etmək lazımdır. Bunun üçün aşağıdakı suallar aydınlaşdırılmalıdır:

1) Hüquq münasibətləri fundamental anlayışlardandırmı?
2) Onun dövlət və hüquq nəzəriyyəsinin digər anlayışları ilə nə kimi əlaqəsi vardır?
3) Onun təyinatı nədir?
4) O, mövcud reallığı əks etdirə bilirmi?

Problemin həlli üçün hüquq münasibətlərinin hüquqi tənzimetmə sistemindəki yerinə elmi tərif vermək imkanı yaradan fəlsəfi kateqoriyaların açıqlanması mühüm əhəmiyyət kəsb edir.

İstənilən nəzəriyyənin metodoloji problemlərini öyrənmək üçün açar anlayışlardan biri onun təcrübə ilə əlaqəsini müəyyən etməkdir. K.Marks və F.Engels də dəfələrlə vurğulamışdılar ki, təcrübə nəzəriyyənin vacib meyarıdır. Hüquq münasibətləri nəzəriyyəsinin belə təcrübi əhəmiyyəti onun hüquqi tənzimetmə təcrübəsində necə əks olunmuşdur? Bu suala cavab hüquq münasibətləri nəzəriyyəsinin zəruri metodoloji şərtlərini təşkil edir. Hüquq münasibətləri nəzəriyyəsinin metodoloji əsaslarının işlənib hazırlanması, şübhəsiz ki, müzakirə predmeti olan bir çox problemin həllinə də kömək edəcəkdir.

Hüquq münasibətləri nəzəriyyəsinə, dövlət və hüquq nəzəriyyəsinin ümumi problemlərinə həsr edilmiş bütün elmi ədəbiyyatlarda hüquq münasibətlərinə hüquq elmlərinin fundamental anlayışlarından biri kimi yanaşılır. Hüquq münasibətləri nəzəriyyəsinə, onun inkişafına geniş diqqət yetirilməsini biz yalnız

sovet və rus hüquq ədəbiyyatında görə bilərik. Anqlo-sakson və bir sıra Roman-german hüquq sistemli ölkələrdə hüquq münasibətlərinin anlayışı ya heç tədqiq olunmayıb, yaxud da anlayışlar sistemində ikinci dərəcəli yer tutan və çox məhdud bir məsələ kimi şərh edilmişdir.

XX əsrin əvvəllərində yazılmış hüquq ədəbiyyatında hüquq münasibətləri hüquqi münasibət adlandırılırdı və ona realizəsi digər şəxsə olan tələb vasitəsilə təmin olunan subyektiv hüquq kimi yanaşılmışdır. Belə ki, N.M.Korkunov hüquq münasibətlərini hüquqi normalarla tənzimlənən məişət münasibətləri kimi tərif etmişdir. O, hüquqi münasibətlərin məcmusu kimi hüquqi məişət anlayışını yaratmışdır. Lakin bu münasibətlərin dairəsini, o, əhəmiyyətli dərəcədə məhdudlaşdırmışdır. O, hüquq münasibətlərinə iki subyekt arasında qarşılıqlı hüquq və vəzifələrlə əlaqəli olan münasibət kimi baxmışdır[1].

Q.F. Şerşeneviç və L.İ. Petrajitski kimi alimlər də hüquqi münasibətləri iki şəxs arasında qarşılıqlı tələb və öhdəliklərlə müəyyən olunan əlaqə kimi izah etmişdirlər[2]. Onların hüquq münasibətlərinin quruluşuna yanaşmaları hüquqi tənzimetmənin əsas elementlərinin-hüquq subyekti, obyekti, hüquq və vəzifələrin formalaşmasının təhlilinə çevrilmişdir. Beləliklə, xx əsrin əvvəllərində hüquq ədəbiyyatında hüququn tənzim etdiyi ictimai münasibətlərlə əlaqəsinin xarakteri açılmamışdır.

Sovet hüquq ədəbiyyatında kapitalist dövlətlərin hüquq elmində hüquq münqsibətləri anlayışından istifadə edilmədiyi göstərilir və bu kapitalist dövlətlərində gedən proseslərlə, ictimai münasibətləri tənzim edən hüquq sistemi ilə və burjua hüquq elminin qarşısına qoyduğu vəzifələrlə izah edilir. Qeyd olunur ki, burjuaziya feodalizmlə mübarizədə azadlıq, qanunçuluq, iqtisadiyyata dövlətin müdaxilə etməməsi şüarlarını irəli sürsə də, bu barədə elan olunan prinsip və doktrinalar formal səciyyə daşımış və dövlət cəmiyyətin həyatının bütün sahələrinə və xüsusilə də iqtisadiyyata müdaxilə etmək üçün özünə yeni-yeni funksiyalar həvalə etmişdir. Cəmiyyətin həyatının müxtəlif sahələrinə dövlətin aktiv

---

[1] Н.М. Коркунов, Лекции по общей теории права изд.9-е. СПб,1914

[2] Г.Ф. Шершеневич, Флософия права, Т.1, М., 1911,стр 568-599; Л.И.Петражитски, Теория права и государства в свяъи с теорие нравственности, Т.2,СПб,1907. Стр.344-461

müdaxiləsi hüquqi vasitələrlə həyata keçirilmişdir. İnzibati təsir formalarına daha geniş yer verilmişdir. Hüququn əsas mənbəyi elan edilən qanun, inzibati akt kimi çıxış etmişdir. Bir çox qanunlar təcrübədə həyata keçirilməmişdir. Hakimiyyətlər bölgüsündə hakimiyyətin bərabər qolu elan edilən məhkəmə hakimiyyəti dövlət idarəetmə aparatının bir ünsürünə çevrilmişdir. Daha sonra bütün bunlar qanunçuluqdan imtina kimi xarakterizə olunur və burjua ədəbiyyatında hüquq münasibətləri nəzəriyyəsinin hüquq norması ilə tənzimlənən və tənzimlənməyən münasibətlərin müəyyən olunmasına xidmət etdiyi göstərilir. Göstərilir ki, anqlo-sakson hüquq sisteminin hüquqi doktrinasının əsas əlaməti hüquqla hüquqazidd olan arasında dəqiq sərhədin olmamasıdır. Buna nümunə kimi "bitib-tükənməyən subyektiv hüquqlar" (imperfect rights) anlayışını göstərmək olar. Qeyd olunur ki, dövlət tərəfindən tanınan hüquq səlahiyyətli şəxsə dövlət məcburiyyət tədbirləri olmadan öz tələbini həyata keçirmək imkanı vermir. Sonda bütün bunların hakim sinifə xidmət etməsi kimi siyasi izah verilir.

Fikrimizcə, yuxarıda qeyd olunanlar sovet ədəbiyyatının mövcud quruluşdan doğan ənənəvi qərəzli yanaşmasından başqa bir şey deyil. Çünki, qanunların formal səciyyə daşıyaraq icra edilməməsi, məhkəmələrin hakimiyyətin bərabər qollarından biri elan edilməsinə baxmayaraq icra hakimiyyətinin alətinə çevrilməsi və s. kimi gətirilən bu səbəblərin hüquq münasibətləri nəzəriyyəsi ilə heç bir əlaqəsi yoxdur. Belə ki, hüquq münasibətləri nəzəriyyəsinin, öz dediklərinə əsasən ən geniş tədqiq olunduğu sovet dövlətinin özündə də işləməyən qanunlar var idi və məhkəmələr hakimiyyətin bir aləti idi.

Ümumiyyətlə, hüquq nəzəriyyəsinin, eləcə də hüquq münasibətləri nəzəriyyəsinin anqlo-sakson hüquq sisteminə aid olan ölkələrdə geniş tədqiq edilməməsi bir sıra obyektiv və subyektiv səbəblərlə əlaqədardır. Subyektiv səbəb kimi ingilis müəlliflərindən birinin bununla əlaqədar yazdığını göstərmək olar. O, yazmışdır: "hüquq nəzəriyyəsi özündə fəlsəfi tədqiqatı da birləşdirir, başqa sözlə fəlsəfi tədqiqat tələb edir. Lakin ingilis hüquqşünasları isə fəlsəfi metodların

tətbiqinə təşəbbüs göstərmirlər. elə bu səbəbdən də ingilis dilində hüquq nəzəriyyəsinə həsr olunmuş ədəbiyyat müqayisə olunmaz dərəcədə azdır. ”[3]

Obyektiv səbəbə gəlincə, bu anqlo-sakson hüquq sisteminin mahiyyəti, xüsusiyyətləri ilə əlaqədardır. İngilis hüququ öz inkişafında üç sahədən ibarət quruluş əldə etmişdir: ümumi hüquq; statutlar (parlamentin qəbul etdiyi qanunvericilik aktları) və icra orqanlarının aktları. Məhkəmə presedentləri sistemində, öz növbəsində, XI əsrdən formalaşmağa başlayan və müasir dövrdə də hüquqi tənzimetmənin müxtəlif sahələrində əsas rol oynayan ümumi hüquq normaları və XV əsrdən 1873-1875-ci illərin məhkəmə islahatlarına qədər mövcud olan, Kansler məhkəməsinin qərarlarından yaranan ədalət hüququ normaları fərqləndirir.

Məhkəmə islahatları nəticəsində ədalət hüququnun rəsmi qaydada ümumi hüquqla birləşməsi baş verdi. Lakin bu gün də ədalət hüququnun normaları vəkalətli mülkiyyət institutunu, ohdəliklərin pozulmasından dəyən ziyanın ödənilməsini və mülki hüququn başqa institutlarını tənzim etməkdə davam edir.

“Ümumi hüquq” termini, indi məlum olur ki, eyni mənalı deyil. Çox hallarda bu ad altında bütövlükdə anqlo-sakson hüquq sisteminin hüququ başa düşülür. Dar mənada “ümumi hüquq” ingiltərə kral məhkəmələrinin hüququnu ifadə edir. Onu “status hüququndan” və ədalət hüququndan fərqləndirmək lazımdır. Bu zaman xüsusi məhkəmələrin təcrübəsində inkişaf edən maddi hüquq normalarını başa düşmək lazımdır.

Beləliklə, anqlo-sakson ümumi hüququnu səciyyələndirən cəhətlərə hüquqi tənzimetmənin məhkəmə təcrübəsi üzərində qurulmasını, hüququn mahiyyətini, məntiqi-hüquqi prinsiplərini, hakimlərin oxşar həyati problemlərin baxılmasında tətbiq etdikləri məhkəmə qərarlarını (presedentlərini) aid etmək olar. Bu zaman prosessual-prosedur qaydalara yüksək əhəmiyyət verilir. Burada hüquq sistemi yüksək səviyyəli ümumuləşdirmələr mücərrəd formalı normaları deyil, mürəkkəb quruluşlu, məntiqi baxımdan qapalı sistemi əks etdirir. Bu, hüquqi problemlərin həllinin açıq sistemli metodu xarakteri daşıyır. Buna görə də belə hüquq sistemləri

---

[3] K. Counter, The Framework and Functions of English Law, Oxford, 1998, p.10-11

normativ-məhkəmə formasına malik olub, ümumi hüquq düşüncəsində, məhkəmələrin müdafiə etdiyi subyektiv hüquq kimi qavranılır.

XIX əsrin sonu XX əsrin əvvəllərində hüquq münasibətləri anlayışından rus və alman hüquq elmində geniş istifadə edilmişdir. Daha sonra Rusiyada bu davam etdirilsə də Almaniyada bu meyl zəifləmişdir.

Hüquq münasibətləri anlayışı başlıca olaraq subyektiv hüquqların təhlilinə, onların konkret münasibətlərdə realizə olunmasına xidmət edir. Bununla belə bu anlayış öhdəlik münasibətlərinin timsalında məhdud məzmunda da istifadə edilir. Bəzi müəlliflər hüquq münasibətlərini mülki hüquq münasibətlərinin müəyyən dairəsi ilə əlaqəli anlayış kimi şərh edirlər. Belə ki, Klod de Paske yazır ki, hüquq münasibətlərinin anlayışından daha dəqiq çıxış etdiyi öhdəlik hüququndan başqa hüquq münasibətləri nəzəriyyəsində hələ də dəqiq bir sahə formalaşmayıb. Y.Bauman isə özünün "Hüquqşünaslığa giriş" kitabında hüquq münasibətlərinə yalnız əqdlərin anlayışı kimi yanaşır.

Alman alimi Q.Radbrux "Hüquq fəlsəfəsi" kitabında hüquq münasibətlərinə hüquq elminin vacib, mühüm anlayışı kimi yanaşır. Doğrudur müəllif hesab edir ki, bu anlayış fəlsəfədə yalnız pozitiv hüquq kimi istifadə olunur. Lakin o qeyd edir ki, hüquq münasibətlərində, subyektiv hüquqlarda və vəzifələrdə əks olunmayan heç bir hüquq qaydası ağlasığmazdır.

Hüquq normasının realizə forması kimi hüquq münasibətlərinin əhəmiyyəti hüququn ictimai münasibətlərə təsiri ilə bitmir. Hüquq münasibətlərinin təhlili, analizi hüququn digər ictimai münasibətlərlə qarşılıqlı əlaqəsinin bütün cəhətlərini və onun əsas inkişaf qanunauyğunluqlarını açıqlaya bilmir.

Hüquq elmində hüquq münasibətləri hüquq norması ilə əlaqəli normanın realizə kimi, hüquqi tənzimetmənin nəticəsi kimi və ya hüquqi tənzimetmə sisteminin həlqəsi kimi tədqiq edilmişdir. Beləliklə, hüquq münasibətləri həmişə hüquq nəzəriyyəsinin açar anlayışlarından biri olmuşdur. Hüquq münasibətlərinin hüquq norması ilə əlaqəsi də həmişə müzakirə mövzusu olmuşdur. Şifahi olaraq fərqli ifadə olunmasına baxmayaraq hüquq münasibətlərinin mahiyyəti ondadır ki, o, özündə hüquq norması ilə tənzimlənən ictimai münasibətləri ifadə edir.

Anlayış elmi şüurun əsas elementi olmaqla varlığın xüsusiyyətlərini obyektiv əks etdirməli, onun mahiyyətini, müəyyən əlamətlərini açıqlamalıdır.

Hüquq elminin anlayışlar sisteminin formalaşdırılmasının subyektiv və obyektiv əlaqələrlə müəyyən edilən xüsusiyyətləri var. Hüquq özündə subyektiv şüurla obyektiv zərurətin nəticəsini ifadə edir. Obyektiv reallıq hüquq normasında öz subyektiv əksini tapır. Hüquq və hüquq norması özü obyektiv reallıqdır, lakin xüsusi növ reallıqdır. O, subyektiv şüurla obyektiv zərurətin ifadəsidir, dövlətin məqsədyönlü iradəsini ifadə edən real həyatı əks etdirir. Bu şərtlərdə hüquq norması real həyatdakı həqiqi təcəssümü ilə əlaqələndirildikdə xüsusi əhəmiyyətə malik olur. O, obyektiv inkişaf qanunlarının hüquq normasında nə qədər dəqiq və adekvat əks olunmasını müəyyən etmək imkanı verir. Hüquq normasının realizəsini bildirən, onu real həyati münasibətlərdə ifadə edən anlayış hüquq münasibətləri anlayışıdır.

Hüquq münasibətləri anlayışının elmi əhəmiyyəti olduqca böyükdür. Hüquq cəmiyyət üzvlərinin tərbiyə olunmasında vacib rol oynayır. Hüquq norması elmi nailiyyətlərdən, kollektiv təcrübədən istifadəyə əsaslanır. O, cəmiyyətin qarşısına qoyduğu məqsədlərə çatmaq üçün zəruri davranış modeli müəyyən edir. O, təkcə mövcud münasibətləri möhkəmlətmək və qorumağa xidmət etmir, həm də onların inkişafına kömək edir. Hüquqa uyğun olan müəyyən fəaliyyəti stimullaşdıran normaların xüsusi çəkisini artırır. Bu normalar hüquq münasibətlərində realizə olunur. Hüquq münasibətlərinin tədqiq olunması bizə aşağıdakıları müzakirə etmək imkanı verir:

1) Cəmiyyətin obyektiv qanunauyğunluqlarından irəli gələn tələblər normada düzgün əks olunurmu?
2) Norma və münasibətlərin inkişafının məqsəd və vəzifələrinə uyğundur.

Burada biz hüquq elminin yeni bir funksiyası ilə qarşılaşmış oluruq. Digər ictimai elmlər kimi hüquq da cəmiyyətdə vacib funksiyalar yerinə yetirir. Hüquq elmini hüquq normasının tədqiqatı ilə məhdudlaşdırmaq olmaz. Onun əsas vəzifələrindən biri normanın sosial səmərəliliyini müəyyən etmək, optimal

qərarların qəbul edilməsinə kömək etməkdir. Hüquq elminin bu rolu real həyatda hüquq normasının həyata keçirilməsinin, realizə olunmasının-hüquq münasibətlərinin geniş tədqiq olunmasını tələb edir. Bu cür tədqiqat hüququn digər ictimai hadisələrlə müvafiq qanunauyğunluqlarını aşkar etməyə, hüququn cəmiyyətin həyatındakı yerini müəyyən etməyə imkan verir.

Beləliklə, hüquq münasibətlərinin tədqiq olunmasının, hüquq münasibətləri nəzəriyyəsinin formalaşdırılmasının iki aspekti var. Bunlardan biri onun qneseoloji aspektidir. Qneseoloji aspektdə normanın hüquq münasibətlərində realizəsinin tədqiq olunması hüququn təbiətini, onun cəmiyyətdəki yerini, onun təsir mexanizmini, ictimai varlıqla şüurun əlaqəsini və bunun xüsusi forması-gerçəkliyin hüquqi dərk olunmasını aşkar etmək üçün geniş imkanlar verir.[4] Hüquq münasibətləri nəzəriyyəsinin digər aspekti qneseoloji aspektindən heç də az əhəmiyyət kəsb etməyən ontoloji aspektidir. Hüquq münasibətləri təlimi obyektiv reallıq kimi, müəyyən maddi və ideoloji münasibətlərin forması kimi hüquq elminin zəruri istiqamətləridir. Məşhur ispan filosofu Xose Orteqa-i-Qasset yazmışdır: "fəlsəfə əşyaların varlığını tam parlaqlığı və şəffaflığı ilə açmaq deməkdir. O, varlıq haqqında təlimdir, ontologiyadır. Buna görə də bütün varlıqlara, o cümlədən şüura da ontoloji planda yanaşıla bilər və yanaşılmalıdır".[5]

Hüquq münasibətləri hüquqla digər ictimai hadisələrin üzvi əlaqəsini əks etdirir. Buna görə də hüquq münasibətlərinin təhlili digər elmlərin, təkcə ictimai elmlərin deyil, həm də təbii elmlərin materiallarından geniş istifadəni nəzərdə tutur. Hüquq münasibətlərinin aşağıda göstəriləcək bəzi formaları yalnız hüquq sahəsində qalır. Lakin əksər hallarda hüquq münasibətləri vahid forma və məzmun kimi müxtəlif elm sahələri tərəfindən tədqiqat tələb edir. Bu baxımdan hüquq münasibətlərinə hüquq elmi ilə digər elmlərin arasında yerləşən "aralıq" anlayış kimi yanaşmaq olar. Hüquq münasibətlərinin elmi anlayışı hüquqla ictimai həyatın digər hadisə və proseslərinin əlaqəsinin aşkar edilməsinə xidmət edir.

---

[4] Г.С. Остроумов, Правовое осознание действительности, М.,1969.Стр.3-12
[5] Ортега-и Гассет Х. Что такое философия? М.,1991.с.107

Bütün bu deyilənlər hüquq münasibətləri nəzəriyyəsinin hüquq elminin əsas elementlərindən biri kimi vacib elmi anlayış olması barədə şəhadət verir.

## Hüquq münasibətlərinin tədqiq olunmasına sistemli yanaşma

Hüquq münasibətlərinin anlayışı, onun ictimai münasibətlərə hüquqi təsiretmə sistemində rolu və yeri yalnız dövlət və hüquq nəzəriyyəsinin vahid mövqeyi ilə tam aşkar edilə bilər. Bu "cəmiyyət-dövlət-hüquq" sisteminin vəhdətini əks etdirir. Bu sistemdə hüquq, dövlətin fəaliyyətində ictimai inkişafın qanunauyğunluqları və dövlətin cəmiyyətin inkişafına aktiv təsirini əks etdirən vasitə kimi çıxış edir.

Sistemli yanaşma nöqteyi-nəzərdən hüquq münasibətlərinin tədqiq metodologiyasının təkamülü maraqlıdır. Artıq qeyd edildiyi kimi XX əsrin I yarısında hüquq münasibətlərinə hüquq norması ilə əlaqəli olmayan bir institut kimi yanaşılmışdır. Daha sonra hüquq münasibətlərini hüquq norması ilə sıx əlaqəli şəkildə öyrənməyə başladılar. Bu zaman tez-tez qeyd etməyə başladılar ki, norma ictimai münasibətlərin qanunauyğunluğlarını əks etdirir. Belə ki, İ.Sabo yazır: "hüquqi münasibət öz mahiyyətinə və ictimai keyfiyyətinə görə üçlük sxemindəki ayrı-ayrı elementlərin qarşılıqlı əlaqəsini açmaq yolu ilə dərk oluna bilər. Üçlük sxemini ictimai münasibət, hüquq norması və hüquq münasibəti kimi üç element təşkil edir".[6]

XX əsrin II yarısında sovet hüquq ədəbiyyatında hüquq münasibətlərini hüquqi tənzimetmənin ümumi sistemində tədqiq etməyə başladılar. Bu isə hüquq münasibətlərinin digər hüquqi hadisələrlə əlaqəsini daha ətraflı müəyyən etməyə imkan verirdi. Həmin dövrdə hüquq münasibətlərini öyrənən alimlərdən biri hesab edirdi ki, hələ də "cəmiyyət- dövlət- hüquq" sisteminin zəruri həlqəsi olan dövlət hüquq münasibətləri tədqiqatçılarının nəzər nöqtəsindən yayınmışdır. Onun fikrincə obyektiv qanunların tələbləri dövlət tərəfindən dərk edilməli və dövlət tərəfindən təşkil edilən orqanlar vasitəsilə hüquq normasında öz adekvat əksini tapmalıdır. Bu prosesdə obyektiv qanunların tələblərini düzgün və vaxtında aşkar edən, onları hüquqi anlayışlar və kateqoriyalar dilinə köçürən dövlət orqanları sisteminin qurulması əhəmiyyətli rol oynayır.

---

[6] И. Сабо. Социалистическое право. М., 1964. С. 306

Hüquq cəmiyyətin həyatının bütün sahələrində insanların davranışına effektli təsir vasitələrindən biridir. Bu zaman hüquq, hüquq norması və hüquq münasibətləri insanlarda hüquqi şüurun formalaşmasına mühüm təsir edir.

Hüquqi şüur ictimai şüurun mühüm bir formasıdır. O cəmiyyətdə mövcud olan hüquqi baxışların, nəzəriyyə və hisslərin məcmusunu istifadə edir. O, hüquq münasibətlərini, sosial və etnik biliklərin və bütövlükdə cəmiyyətin tələbatlarına və mənafeyinə uyğun olaraq əks etdirir. Bu şüur formasında insanların azadlıq, ədalət və ədalətsizlik haqqında təsəvvürləri, hüquqi bilikləri, habelə cəmiyyətdəki hüquq-mühafizə və hüquq tətbiqedici orqanların fəaliyyətinə verilən qiymət əhatə olunur. Hüquqi şüur həm də cəmiyyət sosial qrupların və etnik birliklərin mövcud ictimai münasibətlər sistemindəki real hüquqi vəziyyətini əks etdirir.

Hüquqi şüur həm də hüquqi nəzəriyyələrini və hüquqi ideologilayaları əhatə edir. O, ictimai münasibətlərin hüquqi səpkisinin ideya və ifadəsi kimi çıxış edir. Hüquqi şüur real hüququn təsiri altında formalaşır, hüquq normaları və qanunlar vasitəsilə həyata keçirilir. Mövcud cəmiyyətdəki müxtəlif hüquq münasibətləri iştirakçılarının sosial-iqtisadi fəaliyyətini tənzim eldən hüquqi normativləri və qanunları istifadə edən biliklər və qiymət də hüquq şüura daxildir. Bundan əlavə hüquq, azadlığın imkanlarını, hüdudlarını və strukturunu müəyyənləşdirir, onun dövlət tərəfindən qanunvericilik yolu ilə rəsmi müədafiə edən forması, normaları və ölçüsü kimi çıxış edir.

Hüquqi fəaliyyət insanlar arasında sosial ünsiyyətin bir növüdür. O ictimai subyektlərin hərəkət və davranışları hüquq normalarına tabe edir. Hüquqi şüur təkcə real hüquq münasibətlərindən deyil, həm də bu şüurun konkret daşıyıcıları olan böyük inlsan qruplarından asılıdır.[7]

Hüquqa və hüquqi şüura konkret tarixi yaşama onların əsl mahiyyətini düzgün müəyyən etmək imkanı verir. Bəzən belə bir fikir söylənilir ki, guya hüquqi şüur əbədi xarater daşıyan "təbii qanundur". Digər bir baxış hüququn yaranmasını insanın mücərrəd təbiəti, onun ehtiraslarıdır. Hüquq və hüquqi şüurun yaranması səbəblərini ictimai münasibətlərdən kənarda izah etmək doğru deyildir. Hüquqi

---

[7] Л.С. Явич, Право и общественные отношения. М., 1971. С. 83

şüurun real hüquq münasibətlərinin əks ketdirilməsi kimi yaranır və onların dəyişilməsi ilə dəyişir. Bunun müxtəlif formasiyalarda hüquqi şüura nəzər salmaqla müəyyən etmək olar.

Quldarlıq cəmiyyətində hüquqi şüur qul və quldarların bir-birinə zidd hüquqi baxış və təsəvvürlərini əhatə etməsinə baxmayaraq bütövlükdə həmin dövrün ictimai münasibətlərinə tam uyğun olmuşdur. Eyni fikrin feodalizm cəmiyyətinin hüquqi şüuru haqqında da demək olar. Əlavə olaraq onu da demək olar ki, burada ictimai münasibətlərin bütün tərəflərinə dinin dərindən nüfuz etməsi nəticəsində həm feodallar sinfinin, həm də kəndlilərin hüquqi şüuru dini forma almışdır. Həmin dövrdə ictimai münasibətlər hüquqi deyil, daha çox dini və əxlaqi normalara tənzim olunmuşdur. Kapitalizm cəmiyyəti təşəkkül tapdıqda ona uyğun olan burjua hüququi şüurunda yaranmışdır.

Hüquqi şüur real hüquq münasibətlərilə vəhdətdə çıxış edərək cəmiyyətin həyatında mühüm rol oynayır. Məsələn, geniş təbəqələrin hüquqi psixologiyası, onun cəmiyyətdə ədalətsizliyin mövcud olduğunu hiss etməsi, azadlıq və bərabərlik arzuları onları fəaliyyətə ruhlandıran mühüm mənəvi stimuldur. Yaxud da başqa bir misal: Hakimiyyətdə olan sosial qüvvələr - elita öz hüquqi psixoligiyası və hüquqi ideologiyasına müvafiq surətdə qanunvericilik orqanlarını, hüquq tətbiqedici və hüquq-mühafizə orqanlarını yaradır. Məhz bunlar cəmiyyətdəki hüquq münasibətlərininin tənzim edilməsində mühüm və həlledici rol oyanyır.

Lakin, hüquqi şüur ilə hüququ tam eyniləşdirmək olmaz. Onlar bir-birindən fərqlənir. Belə ki, hüquq, hüquq münasibətləri qanunlarda və hüquq normalarında öz əksini tapır. Onların yerinə yetirilməsi dövlət hakimiyyətinin gücü, məcburiyyət vasitələrinin köməyi ilə təmin edilir. Hüquqdan fərqli olaraq hüquqi şüur məcburi xarakter daşımır, dövlətin məcburiyyət gücü ilə təmin edilmir.

Hüquq münasibətləri yalnız dövlət tədbirlərinin ümumi kompleksində səmərəli surətdə tədqiq oluna bilər. Bu dövlət tərəfindən real ictimai münasibətlərə müvafiq hüquqi forma verilməsi üçün hüquq normasını yaradarkən qarşıya qoyulan məqsədi aydınlaşdırmağa geniş imkanlar verir.

Hüquq münasibətlərinin dövlət və hüquq nəzəriyyəsinin vahid mövqeyindən tədqiq edilməsi onun hüquqi tənzimetmə sistemindəki yerini tam aydınlaşdırmağa kömək edir. Normanın yaradılması zamanı güdülən məqsəd cəmiyyətin inkişafında maraqlı olan şəxslərin və kollektivllərin davranışına təsir etməkdir.[8] Lakin, bu məqsədə heç də həmişə hüquq münasibətlərinin meydana gəlməsi yolu ilə nail olmaq olmur. Dövlət hüquq normasının təşkil edərkən çalışır ki, normanın özünün mövcudluğu davranışın əsaslarını müəyyən etməklə ona təsir göstərsin. Bu cəza qorxusualtında müəyyən davranışı qadağan edən normanın qoruyucu fəaliyyətinə əsaslanır. Bu nöqteyi-nəzərdən məqsəd onunla nəticələnir ki, normanın mövcudluğu hüquq münasibətlərinin meydana gəlməsinə mane olur.[9] Onu da unutmaq lazım deyil ki, burada söhbət cəza ilə nəticələnən cinayət-hüquq münasibətlərindən gedir.

Beləliklə, bir çox hallarda dövlətin iradəsinin realizəsi hüquq münasibətlərinin meydana gəlməsi yolu ilə deyil, qadağanedici normanın təsiri ilə ictimai həyatda müəyyən arzuolunmaz hadisələrin qarşılaşmasının alanmasının vasitəsilə baş verir. Belə normaların effektivliyi haqqında meydana gələn hüquq münasibətlərinə görə hakimiyyətə yürütmək olmaz. Onların effektivliyi normanın mövcudluğunun insanların davranışlarının əsaslarına nə dərəcədə həlledici təsir göstərməsi ilə müəyyən edilir.

Bir sıra normalar dövlət orqanlarının, ictimai təşkilatların, vətəndaşların, kommersiya təşkilatlarının və kiçik sosial qrupların statusunu müəyyən edir. Bu normalar hüquq münasibətlərində realizə olunur. Onlar yalnız hüquq münasibətlərinin müəyyən şərtlərlə meydana gəlməsi üçün zəmin hazırlayır. Doğrudur, hüquq ədəbiyyatında belə normaların da hüquq münasibətlərində realizəsini təşkil etməyə cəhdlər olmuşdur. Bunun üçün norma əsasında meydana gələn hüquq münasibətlərinə vətəndaşların və ictimai təşkilatların hüquq subyektliyini müəyyən edən və ümumi hüquq normasında əks olunan anlayışları daxil etmək lazımdır. Belə bir nəticəyə S.S. Alekseyev gəlmişdir. O,

---

[8] Ю.К. Голстой, К Теории правотношения. Л., 1959. С. 5.
[9] Дудин А.П. Диалектика правоотношения. Саратов, 1983. С. 28-30.

ümumtənzimləyici hüquq münasibətlərinin mövcudluğunu irəli sürmüşdür.[10] Hüquq ədəbiyyatında hüquq münasibətlərinin bu cür izahına qarşı əsaslandırılmış etirazlar olmuşdur. Bu cür etirazlar Y.K. Tolstoy və N.Q. Aleksandrov tərəfindən olmuşdur.[11] Həmin etirazlara aşağıdakı fikirləri əlavə etmək olar. Hüquq münasibətlərinin anlayışının əhəmiyyəti ondadır ki, o, hüquqi forma geyindirilmiş konkret, real ictimai münasibətləri ifadə edir və bu normanın realizəsinin nəticəsidir. Hüquq münasibətləri anlayışının hüquq və öhdəlikləri imkan kimi müəyyən edən normanın nəticəsinin daxil edilməsi yolu ilə genişləndirilməsi ona gətirib çıxartmışdır ki, anlayış öz elmi əhəmiyyətini və təcrübi qiymətini itirmişdir.

Beləliklə, hüquq normasının hüquq münasibətlərində realizəsi hüququn ictimai münasibətlərə təsir vasitələrindən biri kimi daha geniş yayılmış və daha effektli vasitədir. Gələcəkdə realizə olunan hüquq norması ictimai münasibətlərin müəyyən növünə yeni keyfiyyət gətirir. Hüquq münasibətləri özündə müəyyən ictimai münasibətlərin həyata keçirilə biləcəyi formanı ifadə edir. Burada normanın hüquq münasibətlərində  realizəsinin müxtəlif variantları mümkündür. Bəzi ictimai münasibətlər yalnız hüquq münasibətləri kimi çıxış edə bilər. buna səciyyəvi nümunə kimi prossesual münasibətləri göstərmək olar. Hüquqi forma xaricində belə münasibətlər mövcud ola bilməz.

Lakin bir çox hallarda münasibət ya hüquq münasibəti kimi ya da hüquq norması ilə tənzim edilməyən münasibət kimi mövcud ola bilər. Burada müxtəlif variantlar mümkündür.

1. Müəyyən münasibətə də onun üçün müəyyən edilmiş hüquqi forma verilməlidir. Bu hüquqi formanın tətbiq edilməsinin özü, mənfi hüquqi nəticələrə səbəb olan hüquq pozuntusudur. Belə ki, vətəndaş tərəfindən müvafiq hüquqi rəsmiləşdirmə olmadan tikinti işlərinin aparılması hüquq pozuntusudur və həmin qanunsuz tikintinin sökülməsi də daxil olmaqla bir sıra mənfi nəticələrə səbəb ola bilər.

---

[10] С.С. Алексеев Проблемы теория  право. Т. 1. М., 1995. С. 272-274.
[11] Ю.К. Толостой. К теории правоотношения. Л.. 1959. С. 4-11; Н.Г. Александров, Заканность и правоотношения в собетском общества.М.,1955.С.89.

2. Elə münasibətlər də mövcuddur ki, onlara heç gələcəkdə də hüquqi forma verilməsin. Bu formanın tətbiq edilməsi öz-özlüyündə hüquq pozuntusu deyil. Lakin belə münasibətlərin iştirakçıları maraqlarının müdafiəsi üçün dövlətin müdaxiləsinə ümid bəsləyə bilməz. Məsələn, vətəndaş heç bir rəsmiləşdirmə və şahid iştirakı olmadan öz tanışına pul verir. O, bu zaman heç bir hüquq pozutusu törətmiş sayılmır. Lakin mübahisə zamanı o, yalnız o halda hüquqlarının müdafiəsi üçün dövlətin müdaxiləsinə bel bağlaya bilər ki, müvafiq rəsmiləşdirməyə əməl etmiş olsun. Digər bir misal, şəxs əmək müqaviləsi bağlamadan müəssisədə işə başlayır. Müəyyən müddətdən sonra ona işdən azad edildiyi bildirilir. O, bu zaman işə bərpa üçün məhkəməyə müraciət etsə də bu faydasız olacaq. Çünki, əmək münasibətlərinin mövcudluğunu təsdiq edən əsas sənəd AR Əmək Məcəlləsinə görə əmək müqaviləsidir. Azərbaycan Respublikası məhkəmələrinin təcrübəsinə diqqət yetirən zaman biz kifayət qədər bu cür işlərlə rastlaşmışıq.

Buradan aydın olur ki, bu kimi münasibətlərdə yalnız iştirakçılar aralarında münasibətlərə hüquq münasinbətləri xarakterinin verilib-verilməməsi barədə məsələni həll edirlər.

Onu da unutmaq olmaz ki, hüquqi forma verilən münasibətlərin heç də bütün cəhətləri hüquq norması ilə tənzimlənmir. Bəzi hallarda dövlət bu və digər münasibəti ümumi formada tənzimləməklə münasibət iştizrakçılarına qərar qəbul etmək və onu icra etmək üçün imkanlar verir. Bu daha çox mülki və ailə hüququna aiddir.

Bəzən sual yaranır: niyə bir halda öhdəlik münasibətinə hüquq münasibəti forması geyindirilərək məcburi xarakter verilir, digər halda isə bu baş vermir və həmin öhdəlik münasibəti qeyri-məcburi olur? niyə bir sıra hallarda dövlət münasibəti tam tənzimləyir, digər hallarda isə onun yalnız bəzi tərəflərini tənzim edir? Bu suallara dövlətin bu sahədə qarşısına qoyduğu konkret məqsədlərə aydınlıq gətirməklə, sistemli yanaşma əsasında cavab vermək mümükündür. Hüquqla tənzimlənən və tənzimlənməyən ictimai münaksibətlərin nisbəti, habelə hüquq münasibətinin tənzimlənən və tənzimlənməyən elementinin hüquqla tənzimlənən və tənzimlənməyən elementlərinin hüquqi təsiretmənin effektivliyi

üçün mühüm əhəmiyyət kəsb edir. Bu nisbətdə hüququn ictimai həyatdakı yeri, onun həyata aktiv müdaxiləsi, onun tənzimləyici funksiyası öz əksini tapır. Tədqiq edilən münasibətlər obyektiv qanunauyğunluqlarla şərtlənir, buna görə də bu qanunauyğunluğların dərk edilməsi və cəmiyyətin idarə olunmasında istifadə edilməsi və cəmiyyətin idarə olunmasında istifadə edilməsi vacibdir. Hüquq münasibətlərinin hüquq norması ilə tənzimlənməyən münasibətlərlə müqayisəli şəkildə tədqiq olunması, hüququn effektivliyinin yüksəldilməsinə, onun məzmunundakı imkanlardan daha ətraflı istifadə edilməsinə kömək edən vasitə ola bilər. Dövlət və hüquq nəzəriyyəsinin vəhdəti prizmasından çıxış edərək hüquq münasibətlərinin tənzimetmə sistemindəki yerinin müəyyən edilməsi, hüquq münasibətləri nəzəriyyəsinin bəzi yeni aspektlərini aşkar etməyə kömək edir. Hələ də hüquq münasibətləri probleminə aid əksər ədəbiyyatlarda hüquq münasibətlərinin meydana gəlmə əsaslarına görə fərqləndirilməsi məsələsi kifayət qədər aparılmamışdır.

Unutmaq olmaz ki, hüquq norması hüquq münasibəti modeli yaradarkən onun yalnız əsas və  səciyyəvi cəhətlərini əks etdirə bilər. Real münasibət daha zəngin modeldir. Normanın hüquq münasibətlərində realizə prosesi zamanı onun konkret şərtlərə, ictimai tələbatlara və tənzimetmənin məqsədlərinə müvafiqliyi aşkara çıxır. Normanın hüquq münasibətlərində realizəsi göstərir ki, norma nə dərəcədə realdır və ya reallığın tələbləri ilə uzlaşır.

Hüquq münasibətlərinin dərk olunması üçün birinci dərəcəli əhəmiyyət kəsb edən məsələ hüquq normasının bu münasibətlərdə realizəsi prosesinin aydınlaşdırılmasıdır. Bu proses onunla nəticələnir ki, ümumi norma ilə konkret münasibətin uyğunluğu hüquq münasibəti forması alır, yeni keyfiyyət əldə edir. Hüquq münasibəti  normanın gələcək realilzəsi kimi, özündə hüquqi formaya salınmış konkret ictimai münasibətləri ifadə edir. Qeyd olunanlar hüquqi tənzimetmə sistemində hüquq münasibətlərinin yerinin başa düşülməsi, öyrənilməsi üçün açar rolunu oynayır.

Hüquq münasibətləri müvafiq ictimai  münasibətin forması kimi hüquq norması ilə təşkil edilir. Forma və məzmunun müvafiq olmasının ciddi

qanunauyğunluğu onda əks olulnur ki, o, onun forma və məzmununa aid obyektiv tələbləri düzgün əks etdirməlidir. Əgər bu tələblər düzgün dərk olunubsa, hüquqi kateqoriyaların dilinə düzgün köçürülübsə, digər qarşılıqlı əlaqəli formalarla uzlaşırsa, bu zaman hüquq norması ictimai münasibət forması üçün adekvat model yaratmış olur.[12] Əks halda, hüquq norması ölü normaya çevriləcəkdir.

[12] Халфина Р.О. оьщее учение о правоотнешение. М., 1974. С. 37

## Hüquq münasibətləri nəzəriyyəsi və təcrübə

Elmi nəzəriyyənin vacib xüsusiyyəti onun təcrübəyə münasibətidir. Nəzəriyyənin həqiqililyi, doğruluğu təcrübə ilə yoxlanılır, başqa sözlə desək üzə çıxarılır.

T.Hobbsa görə, təcrübə hər cür biliyin mənbəyidir. Alman filosofu Q.Leybnis isə insana bəlli olan bütün bilikləri iki növə ayırırdı: "zəka həqiqəti" - yəni, nəzəri biliklər və "fakt həqiqəti" - yəni, təcrübi biliklər.[13]

İstənilən nəzəriyyənin metodoloji problemlərini öyrənmək üçün açar anlayışlardan biri onun təcrübə ilə əlaqəsini müəyyən etməkdir. K.Marks və F.Engels də dəfələrlə vurğulamışdılar ki, təcrübə nəzəriyyənin vacib meyarıdır. Hüquq münasibətləri nəzəriyyəsinin belə təcrübi əhəmiyyəti onun hüquqi tənzimetmə təcrübəsində necə əks olunmuşdur? Bu suala cavab hüquq münasibətləri nəzəriyyəsinin zəruri metodoloji şərtlərini təşkil edir. Hüquq münasibətləri nəzəriyyəsinin metodoloji əsaslarının işlənib hazırlanması, şübhəsiz ki, müzakirə predmeti olan bir çox problemin həllinə də kömək edəcəkdir.

Marksın "Hegelin hüquq fəlsəfəsinin tənqidi" və "Feyerbax haqqında tezislər", Engelsin "Lüdviq Feyerbax və klassik alman fəlsəfəsinin sonu" əsərlərində Hegelin idealizmini tənqid etdikləri kimi, Feyerbaxın materializmini də bəyənmirdilər. Söhbət həmin fəlsəfə tərəfindən cəmiyyət hadisələrinin dərk olunmasında və izahında insanların praktiki fəaliyyətinin rolunu anlamamaqdan gedir. Daha dəqiq desək marksizm, fəlsəfənin mahiyyətini təkcə seyr etmədə və müşahidədə görürdü. Onun fikrincə fəlsəfə insanlar tərəfindən gerçəkliyi öz tələbatları və mənafelərinə uyğun şəkildə dəyişdirməyin nəzəri əsasıdır. Ətraf aləmin fəaliyyətə cəlb olunmuş predmetləri insanlar tərəfindən təkcə seyr olunmur, həm də dəyişdirilir. Bu prosesdə həmin predmetlərin yeni-yeni xassələri aşkara çıxarılır və dərk olunur. Beləliklə marksist fəlsəfədə təcrübə, təcrübi fəaliyyət gerçəklikdəki cisim və hadisəri dərk etməyin əsasını təşkil edir. İctimai təcrübənin məzmunu insanların idraki fəaliyyətinin məqsədlərini şərtləndirir. Həmin

---

[13] Крапивенский С.Э. Обшщий курс философии. Волгоград.1999. С. 42-50.

məqsədlər nəticə etibarilə insanların təcrübi tələbatları və mənafeləri ilə müəyyən edilir. Lakin, marksizmə görə təcrübənin rolu təkcə bununla bitmir. O həm də idrakın nəticələrini, alınmış biliklərin mötəbərliyini ölçən meyar rolunu oynayır. Beləliklə də təcrübə həqiqətin meyarı kimi çıxış edir. İnsanların nə dərəcədə real düşündükləri, yəni onların təfəkkürünün real həyatdakı vəziyyəti nə dərəcədə doğru əks etdirdiyi məhz təcrübi fəaliyyətdə aşkara çıxır.

Yuxarıda deyilənləri belə ümumiləşdirmək olar ki, yalnız təcrübənin dərk olunması, obyektiv reallığın öyrənilməsi vasitəsilə təqdim olunan anlayışın, nəzəriyyənin həqiqiliyi, doğruluğu barədə nəticəyə gəlmək olar.

Dövlət və hüquq nəzəriyyəsi kimi ictimai elm sahəsində nəzəriyyə və təcrübənin əlaqəsi probleminin başqa tərəfi də var. Bu və ya digər dərəcədə ictimai münasibətlərə təsirin təcrübəsində əks olunur. Təcrübə meyarı ictimai elmlərin nəzəriyyəsi sahəsində xüsusi əhəmiyyətə malikdir.

Hüquq ədəbiyyatında təcrübə meyarının hüquq sahəsində də vacib olduğu qeyd olunur. V.P.Kazimizçuk "zəruriliyi əks etdirən hüquq normaları həqiqət anlayışına tətbiq edilə bilməz" müddəasını inkar edir. O göstərir ki, hüquqi anlayışların, prinsiplərin və nəzəriyyənin həqiqiliyi, doğruluğu obyektiv mövcud olan hadisə və proseslərin nəzəri formada düzgün əks olunması ilə nəticələnir.[14] Buraya onu da əlavə etmək lazımdır ki, təcrübə meyarı təkcə ictimai həyatdakı real proseslərin nəzəriyyədə, prinsiplərdə, konstruksiyalarda düzügün əks etdirilməsinin müəyyənləşdirilməsi üçün əhəmiyyət daşımır. Bu meyar həm də ictimai münasibətlərə təsirin forma və metodları, münasibətlərin inkişafının proqnozlaşdırılması və onlara təsirin imkanları ilə əlaqədar həqiqi nəzəriyyə və nəticələrin müəyyən edilməsində az rol oynamır.

Lakin, hüquq sahəsində nəzəriyyə və təcrübənin qarşılıqlı əlaqəsi hüquqi gerçəkliyin və onun cəmiyyətin həyatındakı yerinin düzgün dərk edilməsinin müəyyənləşdirilməsi ilə məhdudlaşmır. Bu cür dərketmə əsasında hüquq mədəniyyətinin yüksəldilməsinə, hüquqyaradıcı, hüquqtətbiqedici və hüquq-mühafizə fəaliyyətinin təkmilləşdirilməsinə istiqamətlənən təcrübi nəticələr

---
[14] В.П. Казимирчук. Право и методы его изучания. М., 1965.С.186-200

hazırlanır. Bu nöqteyi nəzərdən hüquq münasibətləri nəzəriyyəsi və təcrübəsinin tədqiqatı maraq doğurur. Hüquq münasibətləri nəzəriyyəsinə ənənəvi yanaşma belə idi ki, o, təcrübəyə bilavasitə təsir etmir. Belə ki, O.S.İoffe hüquq münasibətləri nəzəriyyəsinin təcrübə üçün əhəmiyyətini vurğulamaqla yanaşı, onun təcrübəyə təsirinin dolayı olduğunu qeyd edir. O, hüquq münasibətlərinə yalnız qanunçuluğun, hüquq qaydasının möhkəmləndirilməsi, vətəndaşların hüquqlarının müdafiəsinin gücləndirilməsi prizmasından yanaşır.[15]

Sonra hüquq münasibətləri nəzəriyyəsi və təcrübə hüquq elmində böyük aktuallığa malik olan problemlər cərgəsinə daxil olmuşdur. Belə ki, bu problemə əmək, mülki, cinayət və s. hüquq münasibətləri kontekstində yanaşan hüquqşünas alimlər məqalə və monoqrafiyalar yazmışlar.

Hüquq münasibətləri nəzəriyyəsi və təcrübə problemi hüququn sosial səmərəliliyi baxımdan hal-hazırda da vacib tədqiqat obyektidir. Təsadüfi deyil ki, hüquq normalarının analizində mühüm yeri onların sosial səmərəliliyinin müəyyən olunması tutur.

Elm və texnikanın yüksək inkişafı ictimai proseslərin müasir tədqiqat metodlarını işləyib hazırlamaq üçün yeni imkanlar açır. Bu metodlar isə hüququn cəmiyyətin həyatının müxtəlif sahələrinə səmərəli təsirini tədqiq etmək üçün yeni-yeni perspektivlər açır. Bu isə öz növbəsində hüquqi tənzimetmənin təkmilləşdirilməsinə imkan yaradır.

Hüquq elmi həmişə sosial səmərəliliyin tədqiqat meyarlarının, metod və formalarının axtarışında olmuşdur. İctimai proseslərin mürəkkəbliyi, burada iqtisadi, psixoloji, demoqrafik və s. müxtəlif amilləri qeyd etmək zəruridir, qarşıya qoyulmuş vəzifələrin həllini çətinləşdirir. Aradan qaldırılmayan çətinliklərdən biri də əməlin əsasları sistemində hüququn yerinin, davranışa təsir göstərən amil kimi xüsusi çəkisinin, digər amillərlə əlaqəsinin müəyyən edilməsidir.

Hal-hazırda hüququn səmərəliliyinin müəyyən edilməsi ilə əlaqədər problemin tədqiqatı başlıca olaraq sahəvi hüquq elmlərində, xüsusilə cinayət,

---

[15] Иоффе О.С. Спорные вопросы учения о правоотнашении // В книге: Иоффе О.С. Гражданское право. М., 2000.С. 600-605

cinayət-prossesual, əmək, mülki və maliyyə hüququ sahələrində aparılır. Lakin konkret məsələlərin sahələr üzrə tədqiq edilməsi ümumnəzəri problemlərin həllini tələb edir.

Normanın səmərəliliyi haqqında mühakimə yürütməyə imkan verən, səmərəliliyə təsir edən amillər haqqında elmi əsaslandırılmış meyarların müəyyən edilməsi ümumi dövlət və hüquq nəzəriyyəsinin bəzi müddəa və nəticələrinin dərindən işlənməsini tələb edir. Bu xüsusilə hüquqda niyyət, iradə, səbəbiyyət və digər problemlərə aiddir. Hal-hazırda hüquq münasibətləri nəzəriyyəsinə də bəzi yeniliklər gətirilmişdir.

Qeyd etmək lazımdır ki, hüququn səmərəliliyinə həsr edilmiş tədqiqat işlərində hüquq münasibətlərinin anlayışı aşkar göstərilmir. Bir qayda olaraq söhbət hüquq normasının səmərəliliyindən gedir və sonuncu bilavasitə sosial proses və nəticələrlə əlaqələndirilir. Nəzərə almaq lazımdır ki, bu zaman hüquq münasibətləri -normanın konkret ictimai münasibətlərdə realizəsi -üçün yer qalmır. G.P.Kazimirçuk göstərir ki, hüquq münasibətlərinin tədqiq edilməsi hüquq normasının qəbul edilməsinə müsbət və ya mənfi təsiri dəqiq müəyyən etməyə imkan verir. Bu həm də ictimai münasibətlərin daha effektli tənzim edilməsi üçün lazımdır. Daha sonra o qeyd edir ki, hüquqi tədqiqatlarda təcrübənin rolu analiz edilərkən hüquq münasibətləri zəruri element kimi xatırlanmır.[16] Bu mövqe ilə bəzi müəlliflər də razılaşır.[17]

Nikitinski V.İ. hüquq normasının effektivliyi ilə onun fəaliyyət mexanizminin effektivliyini fərqləndirir. Normanın mexanizmi dedikdə, o, hüquq münasibəti iştirakçılarının real davranışının hüquq normasında təsbit edilən davranış etalonuna müvafiqliyini, uyğunluğunu nəzərdə tutur. Hüququn effektivliyinin müəyyən edilməsinin ümumi sistemində hüquq münasibətlərinin analizinin əhəmiyyətindən bəhs edərkən, o, real hüquq münasibətləri normaya nə dərəcədə müvafiqdirsə, real davranış da hüquq və vəzifələrə (öhtəliklərə) o dərəcədə müvafiqdir nəzər nöqtəsindən çıxış edir.[18]

---

[16] В.П.Казимирчук, Право и социология. М., 1973. С. 69-71
[17] Халфина Р.О. Общее учение о правоотношения. М. 1974. С. 45
[18] В.И. Никитинский, Эффективность нлрм трудового право М., 1968., 1980. С. 76

Hüquq normasının effektivliyi ilə onun fəaliyyət mexanizminin effektivliyinin belə müqayisə edilməsi bəzi müəlliflər qanunauyğun hesab etmir. Onlar hesab edir ki, normanın effektivliyi onun fəaliyyət mexanizminin düzgün qurulmasından, hüquqi və öhdəliklərin normanın tələbinə hüquqi kateqoriyalar dilində köçürülməsindən daha çox asılıdır.[19]

Hüquq normasının effektivliyinin müəyyənləşdirilməsi prosesində hüquq münasibətlərinin analizi real münasibət hər şeydən əvvəl hüuq münasibəti formasında çıxış etdiyi üçün zəruri mərhələdir. Norma ilə hüquq münasibətinin müqayisəsi zamanı normanın əsaslarının və təcrübədə tətbiqinin müsbət cəhətləri və çatışmamazlıqları aşkara çıxır.

Hüquq münasibətləri mərhələsini nəzərə almadan hüquq normasını onun fəaliyyət nəticələri ilə əlaqələndirsək şübhəsiz ki, sanballı nəticələr əldə edə bilərik. Bu cür tədqiqat normanın effektivliyini şərtləndirən iqtisadi, sosial və psixoloji posesləri açmağa, aşkar hetməyə qadirdir. Bu cür tədqiqatın nəticələri faydalıdır. Belə ki, bu tədqiqat hüquqi tənzimetmə prosesində nəzərə alınması zəruri olan iqtisadi, sosial və psixoloji amilləri aşkara çıxarır. Lakin konkret hüquq münasibətlərinin bir tərəfdən norma ilə, digər tərəfdən real davranışla əlaqəli şəkildə analiz edilməsi prosesində effektivliyin tədqiq olunması bilavasitə hüquqa münasibətdə daha çox məlumat verə bilər. bu isə bizə real ictimai münasibətlərin normada nə dərəcədə düzgün modelləşdirilməsini və adekvat hüquqi təsir vasitələrinin tətbiq edilib -edilməməsi müəyyən etməyə kömək edir. Konkret hüquq münasibətini norma modeli ilə müqayisə etdikdə, həmin münasibət modelinin tipik (səciyyəvi) əlamətlərinin modeldə nə dərəcədə ətraflı nəzərdə tutulmasını və həmin münasibəti hərtərəfli tənzim edib-etməməsini aydınlaşdırmaq olar.

Hüquq normasının real ictimai münasibətlərin tələblərini düzgün əks etdirməməsinin nə kimi mənfi nəticələrlə başa çatmasına sovet dövlətinin mülkiyyətin yalnız ictimai formasına rəvac verməsi, xüsusi mülkiyyət məhdudlaşdırması və ya qadağan etməsi misal ilə aydınlıq gətirmək olar.

---

[19] Ткаченко Ю.Г. Методологические вопросы правоотнишений. М., 1980. С. 76

Belə ki, xüsusi mülkiyyət insanın təbiəti ilə, onun tələbat və mənafelri, sərvətlər (dəyərlər) oriyentasiyası ilə, habelə fəaliyyət motivləri ilə sıx əlaqəlidir. İnsan məhz xüsusi mülkiyyətdə özünü tam dolğunluğu ilə reallaşdıra bilər. buna görə də o məhsuldar əməyin və azad təşəbbüskarlığın qüdrətli mənbəyinə çevrilir. Müasir dövrdə qərarlaşmada olan bazar münasibətləri xüsusi mülkiyyətin inkişafında geniş imkanlar açır. Yeni şəraitdə insanların təsərrüfat müstəqilliyi, şəxsi təşəbbüskarlıq və zirəkliyi, sahibkarlıq vərdişləri inkişaf edir. Azad rəqabət gücləndikcə buraxılan məhsulun keyfiyyəti yaxşılaşır, mülkiyyətçidə məsuliyyət hissi çoxalır. Bunlardan əlavə xüsusi mülkiyyət insanların hüquqi şüur və düşüncəsinin zənginləşməsinə, qanunlara hörmət mədəniyyətinin yüksəlməsinə də müsbət təsir göstərir.

Xüsusi mülkiyyət ilə bərabərlik məsələsi də diqqəti cəlb edir. Bununla əlaqədar qeyd olunmalıdır ki, insanlar təbiətən bərabər deyildir. Odur ki, mülkiyyətdə də bərabərlik qeyri-mümkündür. Vaxtilə Hegel deyirdi ki, əmlak bölgüsündə bərabərlik tətbiq olunsa belə o qısa müddətdən sonra pozulacaqdır. Buna görə də həyata keçirilməsi mümkün olmayan şeyi, həyata keçirməyə cəhd göstərmək lazım deyildir. Guya ədalətin mülkiyyət bərabərliyini tələb etdiyi müddəası yalandır, çünki ədalət hər bir adamın müəyyən xüsusi mülkiyyətə (lakin bərabər miqdarda deyil) malik olamasını nəzərdə tutur.[20]

İnkişaf etmiş ölkələrin təcrübəsi sübut edir ki, hazırda istehsal vasitələrinə sahib olmaq (müəssisənin mülkiyyətçisi olmaq) fəhləni və ya mühəndisi, meneceri o qədər də maraqlandırmır. Hər bir işçi özünün maddi rifah halını yaxşılaşdırmaq barədə düşünür. İstismar məsələsinə gəlincə isə qeyd etmək lazımdır ki, dövlət xalqı müasir kapitalistdən daha çox istismar etməyə qadirdir. Bunu yetmiş ildən artıq davam etmiş sovet rejimi də sübut edir.

Hüquq münasibətlərinin analizi normada hüquq münasibətlərinin əmələ gəlməsi üçün ilkin şərtlərin, iştirakçıların hüquq subyektliliyinin (hüquq qabiliyyətin, fəaliyyət qabiliyyəti, səlahiyyət və s.) düzgün müəyyən edilib-edilməməsini və hüquqi faktların nə qədər dəqiq modelləşdirilməsini göstərir.

[20] Гегель Г. Философия право. М., 1990. С. 109

analiz nəticəsində müəyyən oluna bilər ki, hüquq münasibətlərinin əmələ gəlməsi müzakirə edilən normanın qarşılıqlı əlaqədə olan münasibətləri tənzim edən digər norma ilə uzlaşmasına mane olur. Normaların uzlaşması heç də həmişə normanın özünün təhlili ilə aşkar edilmir.

Hüquq normasının effektivliyinin tədqiq olunması prosesində əldə olunan qiymətli məlumatlar hüquq və öhdəliklərin konkret hüquq münasibətlərində həyata keçirilməsinin təhlilinə kömək edir. Hüquq münasibətlərinin norma modeli ilə müqayisəsi zamanı münasibət iştirakçılarının tez-tez onlara məxsus olan hüquqları həyata keçirmədiyi və bu hüquqlara müvafiq olan öhdəlikləri icra etmədiyi aşkar olunur. Məsələn, insanlar dükanlarda, marketlərdə alqı-satqı edərkən, bunu təsdiq edən qəbz almaq hüququna malikdirlər. Onların bu hüququ qarşı tərəfin vergidən yayınmamaq öhdəliyi ilə müşayiət olunur. İnsanlar  bu hüquqlarını həyata keçirmədikcə, qarşı tərəf də öz öhdəliyini icra etmir. Bu barədə misalların sayını artırmaqda olar.

Hüquqların həyata keçirilməsindən imtina onu göstərir ki, ayrı-ayrı və təşkilati formalar uzlaşmır və iqtisadi, psixoloji və digər amillərin yetərincə hesaba alınması normanın realizəsinə mane olur. Bu cür ciddi siqnal qaunvericiliyin təkmilləşdirilməsini, daha effektiv hüquq təsir vasitələrinin axtarışını və real həyata mövcud olan amillərin dəqiq qeydə alınmasını zəruri edir. Real hüquq münasibətlərinin ictimai münasibətlərin forma və məzmununun, habelə hüquq münasibətləri və normanın əlaqəsi nöqteyi-nəzərdən tədqiq olunması daim inkişaf edən məzmuna müvafiq yeni hüquqi vasitələr öyrədə bilər.

Forma və məzmunun vəhdəti hər bir məzmun üçün müəyyən formanın zəruriliyini şərtləndirir. Cəmiyyətdə hüquq münasibətləri şəklində olan münasibətlər üçün forma dövlət tərəfindən hüquq normasına verilir. Buna görə də dövlətin normayaradıcılıq fəaliyyətində ictimai münasibətlərin ayrı-ayrı növlərinə münasibətdə onları hüquqi formalarının qanunauyğunluqlarını daha dəqiq hesaba almaq qarşıda duran vacib vəzifələrdəndir. İctimai münasibətlərin ayrı-ayrı növlərinin öz formaları ilə əlaqəsini nə qədər tam və dərindən öyrənsək, hüququn bu münasibətlərin inlkişafına məqsədyönlü təsiri üçün daha çox imkanlar əldə

edərik. Onu da yaddan çıxartmaq olmaz ki, elmlərin inkişafı münasibətlərin inkişafını proqnozlaşdırmaq üçün imkanlar yaradır. Bunun sayəsində təkcə münasibətlərin bu səviyyəsinə deyil, həm də inkişaf prespektivinə uyğun formalar meydana gəlir.

Hüquqauyğun davranış forması olan hüquq münasibətlərinin təhlili haqqında söhbət edərkən, məhz bu zaman qanunvericiliyin təkmillərşdirilməsi üçün zəngin məlumat əldə edə biləcəyimizi vurğulamaq vacibdir.

Hüquq münasibətlərinin analizi nəticəsində hüquqi tənzimetmənin effektivliyin kompleks şəkildə tədqiq olunması iki vacib məsələyə müəyyənlik gətirir. Bunlar aşağıdakılardır:

- Hüquq münasibətləri nəzəriyyəsi qarşısında yeni vəzifələr qoyur;

- Nəzəriyyənin təcrübə ilə əlaqəsinin öz inkişafında belə rədd edilə bilməyən yeni yeni aspektrlərini aşkara çıxarır. Hüququn həyata keçirilməsində iradə və mənafeyin əhəmiyyəti, hüquq və öhdəliyin qarşılıqlı əlaqəli formaları, sanksiyaların effektivliyi və s. bu kimi məsələlər davranışa və onun əsaslarına təsirin yeni formalarını aşkar etməyə kömək edən ayınlaşdırma, işıqlandırma vasitələrini əldə etməyi zəruri edir.

## Fəsil II. Hüquq münasibətlərinin anlayışı

## Hüquq münasibətinin anlayışına dair yanaşmalar

Son illər konkret hüquq sahələrində hüquqi tənzimetmə probleminin tədqiq olunması böyük diqqət çəkir. Bu qanunauyğun bir proses olmaqla hüquqi təsir vasitələrindən istifadəyə olan obyektiv zərurəti əks etdirir. Bununla yanaşı konkret təcrübi istiqamət hüququn ənənəvi sahələrinin nəzəriyyəsini, ümumi dövlət və hüquq nəzəriyyəsinin sonrakı inkişafını tələb edir. "Konkret, xüsusi məsələlərin həlli yalnız geniş nəzəri tədqiqat əsasında mümkündür. Elə nəzəriyyənin özü də konkret münasibətlərin hüquqi tənzimlənməsinin zəngin təcrübəsi əsasında inkişaf edir." [21]

Normativ hüquqi qərarın qüvvəyə minməsi üçün onu müvafiq davranış modeli formasında, yəni münasibət iştirakçıları, onların hüquqi statusu, qarşılıqlı hüquq və vəzifələri, hüquqların həyata keçirilməsi və öhdəliklərin icra edilməsi üçün vasitələr dəqiq müəyyən olunan formada təsbit etmək lazımdır. Belə bir modelin yaradılması hüquq elmlərinin bazasından istifadə etməyi tələb edir. Qanunların quruluş modeli müəyyən edilərkən meyar kimi bu və ya digər hüquqi forma, quruluş modelinin səmərəliliyi nəzərə alınır. Bu nöqteyi nəzərdən səmərəli hüquqi tənzimetməni, davranışa münasibətdə müxtəlif təsir vasitələrini və s. tədqiq edən dövlət və hüquq nəzəriyyəsi istiqamətinə maraq ifadə olunur.

Hüquq münasibətlərinin anlayışı barədə danışmazdan əvvəl anlayış barədə qısa məlumat vermək yerinə düşər. Hegel «məntiq elmi» əsərində anlayış barədə ümumi tezislər irəli sürmüşdür. O deyirdi ki, subyekt anlayışdan tam kənar edilməli, onun fəaliyyətinə müdaxilə etməməlidir. Subyektin vəzifəsi yalnız anlayış üzərində müşahidə aparmaqdan ibarətdir. Bu zaman müşahidəçi görür ki, hər bir anlayış məhduddur. Bu keyfiyyəti üzündən anlayış öz əksinə çevrilməklə labüddən özü-özünü məhv edir. Bu halda belə bir cəhət unudulmamalıdır ki, anlayışlar birtərəfli xarakter daşıyır. Daha dəqiq deyilsə, anlayışın mahiyyəti elə onun birtərəfliliyi deməkdir. Buradan aydın olur ki, hər bir anlayışın birtərəfliliyi

---

[21] Халфина Р.О. Обцее учение о правоотношении. М., 1974.С.5

tamamilə konkretdir. Məhz buna görə o başqa anlayışlara deyil, yalnız özünün əksi olan anlayışa keçir. Bu sonuncu isə yenə də öz məhdudluğunu, qüsurlu olmasını büruzə verir və buna görə də öz əksi olan anlayışa keçir. Bu hal ali səviyyəli sintez nail olunana qədər davam edir. Yəni o vaxta qədər baş verir ki, «mütləq və tam həqiqət» əldə edilmiş olsun. Hegel Aristotelin ardınca gedərək bu ideyanı «təfəkkürün təfəkkürü» hesab edir və göstərirdi ki, onun əldə edilməsi ilə məntiq başa çatır.

Anlayışın fəaliyyətini ifadə edən bütün bu proses dialektik yol ilə gedir. Hər bir anlayışda mövcud olan məhdudluq və birtərəflilik onun inkişafının hərəkətverici yayı rolu oynayır. Anlayış öz inkişafında ali nöqtəyə - mütləq səviyyəyə çatmayana qədər onun inkişafının hər bir pilləsi, yalnız nisbi həqiqəti verə bilər. Qəti və tam həqiqət isə ancaq mütləq səviyyədə əldə edilir.[22]

Müasir hüquqşünaslıqda hüquq münasibətlərinin anlayışının müəyyən edilməsinə kifayət qədər çoxlu yanaşmalar mövcuddur. Bir halda hüquq münasibəti adı altında hüquqla hüquqi öhdəlik arasında onların nisbəti mənasında spesifik əlaqə başa düşülür. Burada biz münasibət anlayışından, hər şeydən əvvəl onun riyazi mənasında istifadə edirik. Bu cür baxışın, yanaşmanın nəticəsi olaraq, hər şeydən əvvəl hüquq münasibətinin subyektiv hüquqla hüquqi öhdəlik arasındakı mücərrəd əlaqə kimi başa düşülməsini göstərmək olar. Mahiyyətcə, hüquqi münasibət bu halda qanunvericilik normasının əsas cəhətlərini özündə daşıyır. Digər halda hüquqi münasibət adı altında subyektin hüquqi quruluşdakı hüquqlarının ayrı-ayrı müddəaları başa düşülür. Bu statistik şərh kimi hüququn bir subyekti ilə digər subyektlərinin əlaqəsini əks etdirən hər hansı xüsusiyyət kimi göstərilə bilər. Hüquq normaları ilə tənzimlənən ictimai münasibətlərin müxtəlifliyi kimi hüquq münasibətlərinin şərhi geniş yayılmışdır. Bu hüquq münasibətinin izahına normativ yanaşmanın klassik nümunəsidir. Nəhayət, hüquq münasibəti adı altında hüquq normasına və məhkəmə presedentinə zidd olmayan, hüquqlardan istifadə maraqları və arzuolunan nəticəyə nail olmaya yönəlmiş hüquq subyektlərinin real qarşılıqlı əlaqəsi başa düşülür. Daha geniş anlamda hüquq

---

[22] Гегель Г. Сочинения. Том I. М.,1970. С.340

münasibəti maraqların realizə olunması və qanunda nəzərdə tutulmuş və ya qanuna və hüququn digər mənbələrinə zidd olmayan nəticələrin əldə olunması məqsədilə hüquq subyektlərinin sosial qarşılıqlı əlaqəsinin özünəməxsus formasıdır.

Hüquq münasibətləri anlayışı ümumi hüquq nəzəriyyəsinin mühüm kateqoriyalarından biridir. Bu onunla bağlıdır ki, hüquq münasibətlərinin özü hüquqi mexanizmin elə bir həlqəsini ifadə edir ki, hüquq özünün sosial sferadakı tənzimetmə obyekti ilə qovuşur. Nəticədə hüquq münasibəti olduqca mürəkkəb hüquqi təlim kimi yekunlaşır.

Qeyd etmək lazımdır ki, hüquq nəzəriyyəsində hüquq münasibətlərinin anlayışına birmənalı yanaşılmır. Onun hüquq normaları ilə qarşılıqlı əlaqəsinə müxtəlif təriflər verilmişdir. Bu əsasla hüquq münasibətlərinin anlayışına olan yanaşmaları geniş və dar yanaşmalar kimi təsnif etmək olar.

Geniş mənada hüquq münasibətləri iştirakçılarına qarşılıqlı hüquq və vəzifələrin verildiyi sosial qarşılıqlı əlaqənin xüsusi forması kimi başa düşülür. Burada hüquq münasibətlərinin həyata keçirilməsi dövlət tərəfindən deyil, iştirakçıların özləri tərəfindən təmin olunur.

Subyektiv hüquq və hüquqi vəzifələrin realizəsi xüsusi qaydada baş verməlidir və dövlətin iradəsinə zidd olmamalıdır. Bu haqda hüquq münasibətləri hüquq normasının ictimai münasibətlərə təsiri nəticəsində deyil təbii-tarixi zərurətdən meydana gəlir. Müvafiq əsasın keyfiyyəti insanın təbii hüquqlarını tanıyır.

Dar mənada hüquq münasibətlərinə hüquq normasının faktiki ictimai münasibətlərə təsiri nəticəsində meydana gələn müxtəlif növ sosial münasibətlər kimi baxılır. Hüquq ictimai və dövlət həyatının müvafiq sferasında xüsusi müəyyənlik və sabitlik daşıyan mühüm təşkilati faktor kimi çıxış edir. Hüquq münasibətləri kateqoriyası hüququn insanların davranışına necə təsir etdiyini aydınlaşdırmaq imkanı verir. Hüquq münasibətləri çərçivəsində cəmiyyətin həyat fəaliyyəti sivillik, sabitlik və əvvəlcədən proqnozlaşdırılmaq xüsusiyyəti əldə edir.[23] Bu halda hüquq münasibətləri özündə hüququn dövlət tərəfindən qaydaya

---

[23] Алексеев С.С. Теория права. М.,1995. с.103.

salınmasına ehtiyac olan faktiki ictimai münasibətlərə təsirinin xüsusi nəticəsini ifadə edir.

Müvafiq təsirin nəticəsi kimi hüquq norması əsasında yaranan və subyektiv hüquq və hüquqi öhdəliyin olması ilə səciyyələnən şəxslər arasındakı fərdiləşdirilmiş hüquqi əlaqə çıxış edir. Buna görə də hüquq münasibətləri hüquq norması əsasında yaranaraq özündə dövlətin realizə formasını və dövlətin təşəbbüs göstərərək müəyyən münasibətləri öz yurisdiksiyası və müdafiəsi altına almasını ifadə edir.

Dövlətin iradəsi hüquq normasında ehtiva olunur və ümumi xarakterli qayda formasında çıxış edir, hüquq münasibətləri vasitəsilə hüquq norması hüquqi nizamasalmanın səmərəli vasitəsinə çevrilir. Bu zaman ümumi səciyyəli qayda konkret subyektiv hüquq və hüquqi öhdəliyə çevrilir. Hüquq münasibətlərinə dar yanaşma zamanı hüquq elmində onun hüquq norması ilə tənzimlənməsi ifadəsinə tez-tez rast gəlinir, çünki təcrübədə o sosial qarşılıqlı əlaqələrin əksəriyyətini özündə ehtiva edir.

Hüquq münasubətlərinə müxtəlif müəlliflər tərəfindən anlayış və təriflər verilmişdir:

Hüquq münasibətləri hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər olub, subyektlərin-subyektiv hüquq və hüquqi öhdəliklərin daşıyıcılarının konkret hüquq və vəzifələrində ifadə olunur və dövlət tərəfindən təmin olunur.[24]

Hüquq münasibətləri hüquq norması əsasında yaranan iştirakçıları subyektiv hüquqlara və hüquqi öhdəliklərə malik olan, dövlət tərəfindən təmin edilən ictimai əlaqədir.[25]

Hüquq münasibətləri hüquq normaları ilə tənzimlənən, iştirakçıları subyektiv hüquq və hüquqi öhdəliklər daşıyan, dövlət tərəfindən qorunan və təmin olunan ictimai münasibətlərdir.[26]

---

[24] Протасов В.И. Правоотнешение как система. М., 1991. с. 4-9.

[25] Теория государства и права: Учебник для юридических вузов и факултетов/ Под ред. С.С. Алексесва . М., 1998. С. 287

[26] Российкая юридическая энциклопедия . М.,1999. С. 759. ; Тархов В.А.Гражданское правоотношение.Уфа.1993 С. 8.

Hüquq münasibətləri hüquq normalarına əsaslanan elə ictimai münasibətlərdir ki, onların iştirakçıları dövlət tərəfindən təmin edilən subyektiv hüquqları həyata keçirir və hüquqi vəzifələri icra edirlər.[27]

Hüquq münasibətləri hüquq normaları ilə tənzimlənən ictimai münasibətlər deyil, yalnız subyektlərin hüquq və öhdəliklərinin əlaqəsidir.[28]

Hüquq münasibətinə alman doktrinasında da anlayış verilir. L.Ennekserus yazır ki, hüquq münasibəti həyati münasibətin obyektiv hüquqla tənzimlənməsidir. Bu isə müəyyən şəxsin digər şəxsə münasibəti və ya şəxsin predmetə (əşyaya və hüquqa) münasibəti kimi hüquqi nəticəyə səbəb olur.

Digər konsepsiyaya görə, hüquq münasibəti dedikdə, müəyyən şəxsin digər şəxsə, habelə obyektə olan ayrı-ayrı (tək) münasibətinin obyektiv hüquqla tənzimlənməsi başa düşülür.[29]

Beləliklə, bir çox müəlliflər hüquq norması ilə tənzimlənən iştirakçıları dövlət tərəfindən qorunan subyektiv hüquqlara və hüquqi öhdəliklərə malik olan ictimai münasibətlər kimi başa düşürlər.

Hüquq münasibətinə anlayış verməzdən əvvəl münasibət sözünün mənşəyinə varmaq lazımdır. «Münasibət» sözü bizim dildə müxtəlif ənalarda işlədilir. Məsələn, insanların təbiətə, başqalarına, cismani obyektlərə olan münasibətləri. Nəzərə almaq lazımdır ki, istənilən münasibət əlaqə deməkdir. Burada əlaqə rabitə mənasında deyil. İstənilən əlaqəni isə münasibət hesab etmək olmaz. Əlaqənin münasibət olması üçün aşağıdakı şərtlər vacibdir:

1. Əlaqə qarşılıqlı olmalıdır.
2. Əlaqə təsadüfi deyil, davamlı olmalıdır.

Əlaqənin qarşılıqlı olması o deməkdir ki, o müəyyən şəxslər arasında olmalıdır. Hüquq münasibətinə əlaqə kimi yanaşılan zaman onun qarşılıqlı olması dedikdə hüquq münasibətinin subyektləri nəzərdə tutulur.

Əlaqənin təsadüfi deyil, davamlı olması dedikdə, şəxsin şüurlu surətdə, öz niyyəti ilə müəyyən davranışı etməsi nəzərdə tutulur. Yəni, məsələn: bir şəxs

---

[27] М.Ф. Мяликова. Дювлят вя щцгуг нязярийяси. Б., 1988. С. 297.
[28] Явич Л.С. Общая теория права. Л.,1976. С. 83.
[29] Жалинский А.,Рёрихт А. Введение в немецкое права. М., 2001.С.304

marketdən nə isə alır. Bu zaman onun satıcı ilə olan münasibəti təsadüfi ola bilər. Lakin münasibətin özü alqı-satqıdır. Yəni şəxs əşyanı təsadüfən almır.

Əgər münasibət qarşılıqlı və davamlıdırsa, o, hüquqi münasibətdir. Lakin təkcə bu kifayət etmir. Münasibətin hüquq münasibəti olması üçün mənafe olmalıdır. Bəs nədən bilmək olar ki, mənafe var və ümumiyyətlə hüquq mənafeni qəbul edirmi? Pozitivistlərə görə bunu hüququ bilməklə müəyyən etmək olar. Amma burada taftalogiya var. Bir tərəfdən hüququn mənafe olan yerdə mövcud olduğunu deyirik, digər tərəfdən isə yuxarıdakı suala aydınlığın hüququ bilməklə gəldiyini söyləyirik. Normativistlər və pozitivistlərə görə hüquq münasibətləri hüquq normaları ilə tənzimlənən münasibətlərdir. Əgər hüquq münasibətlərini bu cür qavrasaq, o zaman adət hüququnu və digər ictimai münasibətləri bilməkdən məhrum olacayıq.

Əgər hüququ mövcud və tələb olunan qayda arasında kompromis kimi qəbul etsək, «hüquq münasibətlərinin hüquq normaları ilə tənzimlənməsi» ifadəsi özünü doğruldur. Burada «tələb olunan qayda» dedikdə, norma, «mövcud qayda» dedikdə isə, münasibət nəzərdə tutulur. Bu cür təqdimatda isə yalnışlıq yoxdur. Lakin natamamlıq var. Çünki adət hüququ bunu qəbul etmir. Adətdə norma və münasibət vəhdət təşkil edir. Məsələn, bizdə ramazanda toy etmək qadağandır. Bunu kimin yaratması məlum deyil, çünki islam dini belə bir qadağa qoymur. Lakin təcrübədə təzad, ziddiyyət yaranmır. Amma tədricən təzad yarana bilər. Təfəkkürdə tədricən fikir formalaşır ki, mən buna niyə riayət etməliyəm. Bax bu zaman mövcud və tələb olunan qayda arasında ziddiyyət üzə çıxır. Deməli, hüquq münasibətlərinin belə təqdim olunması yalnış deyil. Sadəcə olaraq burada adətlər, hüququn prinsipləri və doktrina kənarda qalır.

Hüquq münasibətləri hüquqi gerçəkliyin mürəkkəb obyektiv hadisəsidir. Ona da digər növ ictimai münasibətlər kimi iştirakçıları arasındakı xüsusi qarşılıqlı əlaqə forması xasdır.

Hüquq münasibəti, hər şeydən əvvəl hüquqla üzvi surətdə bağlıdır. Hüquqla əlaqədar olmayan hüquq münasibətinin mövcudluğundan söhbət gedə bilməz. Əgər hüquq, hüquq norması yoxdursa, onda hüquq münasibəti də yoxdur.

Dövlətəqədərki, yəni dövlətin meydana gəlməsinə kimi mövcud olan arxaik-ibtidai cəmiyyətdə hüququn özü olmamışdır. Bu və ya digər münasibətin məhz hüquqla bağlılığı onu hüquq münasibəti adlandırmağa əsas verir. Məsələn, vergi münasibətləri maliyyə hüququ ilə, əmək münasibətləri əmək hüququ ilə, əmlak münasibətləri mülki hüquq ilə və s. əlaqədar və bağlıdır. Ona görə də bunlar hüquq münasibətləri adlanır. Dediklərimizdən belə çıxır ki, hüquq münasibətləri hüquqdan ayrı və ondan asılı olmadan mövcud ola bilməz. Bu iki hüquqi hadisə arasında səbəbli nəticə əlaqəsi vardır.

Bəs hüquqla hüquq münasibəti arasında bağlılığın əsas cəhətləri nədən ibarətdir? Bu suala cavab vermək üçün hüququn sosial təyinatının nədən ibarət olmasını xatırlamaq lazımdır. Hüququn əsas və başlıca təyinatı ictimai münasibətlərin xüsusi, rəsmi və dövlət tənzimləyicisidir. Məhz hüquq münasibətləri vasitəsilə hüquq öz məqsədinə çatır və nail olur. Məhz hüquq münasibətləri vasitəsilə hüququn real qüvvə və səmərəli alət olması müəyyənləşdirilir, ifadə edilir. Məsələn, maliyyə hüquq münasibətləri vasitəsilə maliyyə hüququ, əmlak hüquq münasibətlərinin vasitəsilə mülki hüquq, əmək hüquq münasibətləri vasitəsilə əmək hüququ və s. özlərinin tənzimləyici funksiyasını və rolunu yerinə yetirir. Deməli, hüquq münasibəti ictimai münasibətin hüquqla tənzimolunma vasitəsidir. Bu, hüquq münasibəti ilə hüququn bağlılığını sübut edən birinci xüsusiyyətdir.

Bəs müvafiq ictimai münasibət hüquqla tənzim edildikdə onun nəticəsi nə olur? Bu cür tənzimetmə nəticəsində nə yaranır? Qeyd etmək lazımdır ki, hüquq yaradıcı fenomen deyil. O, yalnız ictimai münasibətlərin tənzimləyicisidir. K.Marksın sözləri ilə desək, hüquq öz-özlüyündə heç nə yaratmır, o, yalnız ictimai münasibətləri sanksiyalaşdırır, protokollaşdırır, iqtisadi ehtiyacları ifadə edir.[30] Söhbət hüququn müxtəlif cür ictimai münasibətləri tənzimləməsindən gedir. Belə ki, vətəndaşlar, təşkilatlar, idarələr və müəssisələr öz müxtəlif tələbatlarını təmin etmək üçün cürbəcür ictimai münasibətlərə daxil olurlar. Əgər bu münasibətlər hüquqla tənzimlənərsə, onda hüquq münasibəti yaranır. Məsələn, alıcı vətəndaş

---

[30] Маркс К., Энгельс Ф. Сочeнения. Том 2.с.208; Том 4.с. 112

alqı-satqı müqaviləsi əsasında öz qonşusundan (satıcıdan) minik avtomobili alır. Bu, ictimai münasibətdir. Özü də o, mülki hüquqla tənzimlənir. Belə ki, həmin münasibətə alqı-satqı müqaviləsi haqqında mülki hüquq normaları tətbiq edilir. Bu cür tənzimetmə nəticəsində hüquq münasibəti yaranır. Deməli, hüquq münasibəti hüquqla tənzimetmənin nəticəsidir. Bu, hüquq münasibəti ilə hüququn bağlılığını sübut edən ikinci xüsusiyyətdir.

Amma bu, o demək deyidir ki, hüquq münasibətinin yaranmasına hüquq səbəb olur. Əslinə baxsan bu, belə deyildir. Onun əmələ gəlməsinə hüquq yox, həyati hallar səbəb olur. Məhz həyati hallar insanlar arasında münasibətlər yaradır. Hüquq yalnız münasibət iştirakçılarının hüquq və vəzifələrinin əmələ gəlməsini bu hallarla bağlayır və əlaqələndirir. Bu yerdə K.Marksın ifadəsini işlətmək yerinə düşərdi. O yazırdı ki, yalnız mübadilənin özü faktiki münasibətlər yaradır.[31]

Beləliklə, hüquq münasibəti hüququn yox, hüquqla tənzimetmənin nəticəsidir. Buna görə hüquq münasibətinin yaranmasına hüququn özü səbəb ola bilməz. Hüququn öz-özünə mövcud olması hüquq münasibətinin meydana gəlməsinə dəlalət etmir. Vacibdir ki, müvafiq ictimai münasibət hüquqla tənzimlənsin. Bu isə hüquq münasibətinə hüquq əsasında əmələ gələn ictimai əlaqə kimi anlayış verən müəlliflərin mövqeyinin qeyri-inandırıcı olmasını sübut edir.[32]

Qeyd etdik ki, hüququn əsas təyinatı ictimai münasibətləri tənzimləməkdən ibarətdir. Bu və ya digər ictimai münasibəti tənzimləməklə hüquq həmin münasibətlərə hüquqi forma verir. Bunun nəticəsində bu münasibətlər yeni keyfiyyətə və xüsusi formaya malik olur. Bu, hüquq münasibəti formasıdır. Lakin ictimai münasibət itmir, tam saxlanılır. Daha doğrusu, hüquqla tənzimlənərkən ictimai münasibətlərə hüquqi örtük və pərdə geydirilir. Amma hüquqla tənzimetmə hər hansı bir yeni ictimai münasibətin yaranmasına səbəb olmur. O, yalnız artıq mövcud olan real və faktiki münasibətlərə müəyyən hüquqi forma verir. Deməli, hüquq münasibəti hüquqla tənzimlənən real-faktiki münasibətin formasıdır. O, bu cür faktiki münasibətin forması kimi çıxış edir. Bu, hüquq münasibəti ilə hüquq

---

[31] Маркс К.,Энегельс Ф. Соч. Том 19.с.393

[32] Толтсой Ю. К. К теорий правоотношения. Л., 1959. с.89

arasında bağlılığı sübut edən üçüncü xüsusiyyətdir. K.Marks yazırdı ki, mübadilə nəticəsində yaranan faktiki münasibətlər sonra müqavilə şəklində hüquqi forma alır.[33] Məsələn, yaşayış evi kənd sakininə kirayəyə verilir. Bu, real (faktiki) kirayə münasibətidir. Bununla əlaqədar olaraq kirayə müqaviləsi haqqında mülki hüquq normaları əsasında kirayə müqaviləsi bağlanır, yəni həmin kirayə münasibəti mülki hüquqla tənzimlənir. Bunun nəticəsində bu münasibət hüquqi forma alaraq hüquq münasibəti kimi çıxış edir.

Beləliklə, hüquq münasibəti, birincisi, ictimai münasibətlərin hüquqla tənzim olunması vasitəsi, ikincisi, hüquqla tənzimetmənin nəticəsi, üçüncüsü, faktiki və real münasibətin formasıdır.

Hüquq münasibəti üstqurum kateqoriyasına aiddir. "Siyasi iqtisadın tənqidinə dair" adlı əsərinə yazdığı ön sözdə K.Marks göstərirdi ki, istehsal münasibətlərinin məcmusu cəmiyyətin iqtisadi strukturunu, real bazisini təşkil edir ki, onların üzərində hüquqi və siyasi üstqurum yüksəlir. Bu üstqurum isə ictimai şüur və düşüncənin müvafiq formasına uyğun gəlir. Cəmiyyətin quruluşu bazis adlanır. O, istehsal münasibətləri ilə müəyyən edilir.[34] Üstqurum dedikdə cəmiyyətin siyasi, hüquqi, dini, fəlsəfi, estetik baxışları və bunlara uyğun gələn siyasi, hüquqi və digər təsisatlar başa düşülür.

Bazis cəmiyyətə iqtisadi cəhətdən xidmət göstərir. Üstqurum isə cəmiyyətə siyasi, hüquqi, estetik və başqa ideyalarla xidmət edir. Deməli, üstqurumun cəmiyyətə hüquqi ideyalarla xidmət göstərməsi onu sübut edir ki, hüquq ideoloji formadır. Siyasi, dini və fəlsəfi formalar da ideoloji formalar hesab edilir. Hüququn ideoloji forma olması və ideologiya ilə bağlılığı onu sübut edir ki, hüquq münasibəti ideoloji münasibətdir. Hüquq münasibətləri ideoloji münaibətlərin xüsusi formasıdır. Onların mahiyyətini yalnız maddi münasibətlərlə əlaqəli halda götürməklə aydınlaşdırmaq olar. İdeoloji münasibət kimi o, cəmiyyətin iqtisadi bazisi üzərində yüksələn hüquq və siyasi üstqurumun elementlərindən biri kimi

---

[33] Маркс К.,Энегельс Ф. Соч. Том 19.с.393
[34] Маркс К.,Энгельс Ф.Соч . Том XII. Часть 1. с.6

çıxış edir[35]. Beləliklə, hüquq münasibəti ideoloji üstqurum münasibətidir. Bu, o deməkdir ki, hüquq münasibətləri insanların şüur və düşüncəsi vasitəsi ilə əmələ gəlir, dəyişir və ya xitam olunur. Müasir dövrdə ideologiyanın, yəni müəyyən baxış, ideya, anlayış və təsəvvürlərin müəyyən sisteminin yalnız xarakteri dəyişmişdir. Burada əsas yeri sinfi yanaşmanın əvəzinə, bazar münasibətlərinə və azad sahibkarlığa keçid ideyaları və baxışları tutur.

Söylədiklərimiz belə bir nəticə çıxarmağa imkan verir ki, bizim qarşmızda əgər ideoloji münasibət olarsa, onda hüquq münasibəti barədə yalnız hüquqi forma kimi, yəni hüquqi forma mənasında danışmaq olar. Bu baxımdan o, hüquqi üstqurumu bütövlükdə özündə birləşdirir. Bu mənada hüquq münasibəti hüquq normaları ilə tənzimlənən ictimai münasibətin hüquqi forması kimi çıxış edir[36]. Daha doğrusu, hüquq münasibəti bu münasibətin, yəni bazis münasibətinin hüquqi formasıdır, yəni ideoloji münasibətdir. Fəlsəfi planda əgər bazıs münasibəti (yəni hüquq norması ilə tənzimlənən ictimai münasibət) məzmundursa, ideoloji münasibət isə hüquqi formadır. Bazis münasibətləri (məzmun) bazisə, ideoloji münasibətlər (hüquqi forma) isə hüquqi üstquruma  aiddir.

Dediklərimizdən belə məlum olur ki, əgər bazis münasibətləri hüquq normaları ilə tənzimlənərsə, bunun nəticəsində həmin münasibətlər ideoloji, yəni hüquq münasibətləri olur. bu isə onu ifadə edir ki, bazis münasibətləri (hadisələri) üstqurum münasibətləri ilə dəyişdirilir və əvəz edilir. Bu isə  mümükün olan hal deyil. Ona görə ki, fəlsəfi planda bazis münasibəti (məzmun) ideoloji münasibəti müəyyən edir. Dialektik metod öyrədir ki, formaya münasibətdə məzmun birincidir[37]. Buna görə də bu nöqteyi nəzərdən bəzi müəlliflər hesab edir ki, hüquq münasibətinə hüquq norması ilə tənzimlənən ictimai münasibət kimi anlayış verilməsi uğursuz anlayışdır[38]. Fikrimizcə, Hüquq münasibətinə bu cür tərif verilməsinin həm üstün, həm də çatışmayan cəhətləri vardır. Y.K.Tolstoy qeyd edir

---

[35] Иоффе О.С.Правоотношение по светскому гражданскому праву // В книге: Иоффе О.С.Гражданское прфво. Избанные труды. Избранные труды. М.,2000.с. 509; Толстой  Ю.К. К теории правоот ношения. Л., 1959,с.22.

[36] Иоффе О.С.Спорные вопросы  учение о правотношениие//В книге: Иоффе О.С. Гражданское право. Избранные труды. М., 2000. С 653

[37] Краткие Философский словарь. Под ред. М.Розенталия и П.Юбина. М.,1952.с 562

[38] Халфина Р.О. Обшее учение о правоотношение. М., 1974.с 3-113

ki, hüquq norması yalnız faktiki ictimai münasibətləri tənzimləyir.[39] Digər müəlliflər isə "hüquq münasibətlərini tənzimləyir" formulasını düzgün hesab etmir.[40] Hüquq ədəbiyyatında bu cür anlayışdan istifadə etmək dəb və adət halını almışdır[41]. Müəlliflərin əksəriyyəti hüquq münasibətinə belə definisiya verir.

Hüquq münasibətinə hüquq norması ilə tənzimlənən ictimai münasibət kimi anlayış verilməsini uğursuz hesab edən müəlliflər bu qənaətə belə gəliblər: «hüquq münasibətlərinə verilən anlayışdan məlum olur ki, o, istənilən ictimai münasibəti, o cümlədən ictimai istehsal münasibətlərini də tənzim edir. Tənzim etmək müəyyən etmək deməkdir. Onda belə təsəvvür yaranır ki, hüquq ictimai istehsal münasibətlərini müəyyən edir. Həqiqətdə isə belə deyildir. Hüquq (üstqurum) ictimai istehsal münasibətlərini (bazisi) müəyyən etmir. O özü bu münasibətlərlə müəyyən edilir. Hüquq münasibətləri bilavasitə istehsal münasibətləri ilə şərtlənir. Marks göstərirdi ki, hüquq münasibətləri maddi həyat münasibətlərinə əsaslanır[42]. Belə halda ictimai istehsal münasibətlərinin hüquqla tənzimlənməsindən – müəyyən edilməsindən necə söhbət açmaq olar? Digər tərəfdən, ictimai istehsal münasibətləri obyektiv surətdə, insanların iradə və şüurundan asılı olmayaraq mövcuddur. Hüququn işi isə insanların süurlu, iradəvi fəaliyyəti ilə bağlıdır.» [43]

Hüquq münasibətlərinə müxtəlif müəlliflər tərəfindən verilən anlayışları belə yekunlaşdırmaq olar ki, birmənalı surətdə hüquq ictimai münasibətləri tənzim etmir demək olmaz. Çünki, biz hüququn tənzimedici funksiyasının olduğunu bilirik. Əgər o, ictimai münasibətləri tənzim etmirsə, o zaman hansı tənzimləyici funksiyadan danışmaq olar. Lakin hüquq ictimai münasibətləri tənzim edir deyərkən biz məhz hüququn öz-özünə onları müəyyən etməsini nəzərdə tutmuruq. Hüquq onların təbii vəziyyətindən irəli gələn şərtlər əsasında onların nizamlılığı üçün müəyyən çərçivələr tanıyır. Başqa sözlə, hüquq norması real ictimai münasibətlərin tələblərini düzgün əks etdirməlidir. Əgər biz bu zaman həmin

---

[39] Ю.К.Толстой, К тоерии правоотношения. Л.,1959. с. 29-30
[40] Халфина Р.О. Общее учение о правоотношение. М., 1974. С. 112-113.
[41] Теория государетва и права. Учебник. Под ред. М.Н.Маргенко. М., 2001. с.528.; Теория государства и права. Курс лекций/ Под ред. Н.И. Матузова, А.В. Малько. М.,2000.с.509.; Общая Теория права. Курс лекций / Под ред. В.К. Бабаева. Нижний Новогород, 1993.с.68.; Хропанюк И.Н. Теория государства и права: Учебное пособие / Под ред. В.Г.Стрекозова. М., 2002
[42] Маркс К. вя Енъелс Ф. Сечилмиш ясярляри, Ы ъилд.С.550.
[43] Халфина Р.О. Обшее учение о правоотношение. М., 1974.с 3-113

çərçivələri süni müəyyən etməyə çalışsaq, artıq bu mövcud münasibətləri qabaqlamaq və ya onlardan geri qalmaq olacaq. Bu isə hüquqi tənzimləmənin səmərəliliyinə, effektivliyinə xələl gətirəcək.

Dialektik məntiq forma və məzmuna vəhdətdə baxır. İstənilən hər hansı bir hadisənin forma və məzmunu ayrılmaz və bölünməzdir. Bu, o deməkdir ki, hüquq münasibəti, forması kimi çıxış etdiyi, yəni forması olduğu faktiki-real ictimai münasibətlə (bazis münasibəti ilə, məzmunca) sıx surətdə bağlıdır. O, hüquqi cəhətdən rəsmiləşdirdiyi, ifadə etdiyi faktiki-real münasibətdən ayrılmır. Onlar birlikdə mövcuddur. Məsələn, satıcı əşyanı əvəzində müəyyənləşdirilmiş pul məbləği almaqla alıcıya verir. Bu, alqı-satqı münasibəti, özü də konkret faktiki ictimai münasibətdir. Bu münasibət hüquqi cəhətdən alqı-satqı müqaviləsi vasitəsilə rəsmiləşdirilir. Alqı-satqı müqaviləsi hüquqi formadır. Real-faktiki alqı-satqı münasibəti ilə bu forma vəhdətdədir.

Deməli, hüquq münasibətindən yalnız ideoloji üstqurum münasibəti kimi söhbət açmaq olmaz. Hüquq münasibətinə ideoloji münasibət (forma) kimi yanaşanda, onda forma məzmundan (faktiki ictimai münasibətdən, bazis münasibətindən) ayrılır. Hüquq münasibətinə həm də forma və məzmunun vəhdətindən ibarət olan kateqoriya kimi baxmaq olar. Belə halda o, həm bazis münasibətini (faktiki münasibəti), həm də üstqurum münasibəti (ideoloji münasibəti) əhatə edir. Daha doğrusu, bu baxımdan hüquq münasibəti özündə hüquqi üstqurumla iqtisadi bazisin birliyini əks etdirir. Hüquq münasibəti bu mənada hüquq norması ilə tənzimlənən faktiki-real münasibətin özüdür.

Lakin, hüquqi forma ilə məzmunun vəhdəti olan hüquq münasibəti və faktiki-real münasibət kimi iki müxtəlif anlayış eyniləşdirilə bilməz. Onlar eynimənalı, üst-üstə düşən anlayışlar deyirlər. Hüquq münasibətinə hüquq normaları ilə tənzimlənən ictimai münasibət kimi tərif verilməsi hüquq münasibətini (formasını) ictimai münasibətlə, yəni faktiki münasibətlə (məzmunla) eyniləşdirməyə səbəb olur. Buna görə də həmin tərifi münasib və uğurlu hesab etmək olmaz.

Beləliklə, hüquq münasibəti iki mənada işlədilən kateqoriyadır: məhdud mənada hüquq münasibəti; geniş mənada hüquq münasibəti. Məhdud mənada

hüquq münasibəti dedikdə, faktiki real münasibətlərin hüquqi forması başa düşülür. Bu baxımdan o, ideoloji münasibət kimi çıxış edərək hüquqi üstqurumu əhatə edir. Geniş mənada hüquq münasibəti forma ilə (ideoloji münasibətlə) məzmunun (faktiki münasibətin, bazis münasibətinin) vəhdətini ifadə edir. Bu baxımdan hüquq münasibəti iqtisadi məzmunla hüquqi formanın, yəni iqtisadi bazislə hüquqi üstqurumun birliyi kimi çıxış edir. Lakin bu cür yaşanma hüquq münasibətinin əsl və həqiqi xüsusiyyətini müəyyən etməyə imkan vermir.

Bəs hüquq münasibətinə necə anlayış vermək olar? Biz görürük ki, hər hansı bir ictimai münasibətə girən tərəflər müəyyən hüquqlar əldə edirlər, vəzifələr daşıyırlar. Əgər münasibətə daxil olan tərəflərin hüquq vəzifələri hüquq normalarına əsaslanarsa, həmin normalarda nəzədə tutularsa və müəyyənləşdirilərsə onda bu hüquq münasibətləri hesab ediləcəkdir. Məsələn, vətəndaş tikinti təşlikilatına (podratçıya) bağ evi tikməyi sifariş edir. Bu, ictimai münasibətlərin bir növü olan podrat münasibətidir. Bu münasibət hüquqi cəhətdən podrat müqaviləsi ilə rəsmiləşdirilir. Podrat müqaviləsi podrat münasibətinin hüquq formasıdır. Podrat münasibətində iki tərəf (podratçı, sifarişçi) iştirak edir. Onlar hüquq və vəzifələrə malikdirlər: bağ evini tikib sifarişçiyə verək vəzifəsi; podratçının podrat haqqı ödəmək vəzifəsi; bağ evinin təhvil verilməsini tələb etmək hüququ; podrat haqqının ödənilməsini tələb etmək hüququ və s. Bax, bu hüquq və vəzifələr mülki hüquq normalarına əsaslanır, bu normalarda nəzərdə tutulur. Həmin normalar Azərbaycan Respublikası Mülki Məcəlləsinin 39-cu fəsilinə daxil olan 752-776-cı maddələrdə istifadə olunub. Deməli, göstərilən münasibət podrat hüquq münasibətidir. Alqı-satqı, kirayə, icarə, daşıma, borc və digər münasibətlərdə iştirak edən tərəflərin hüquq vəo vəzifələri də mülki hüquq normalrına əsaslanır.

Cinayət hüququnda isə vəziyyət fərqlidir. Bildiyimiz kimi hər bir hüquq sahəsinin predmeti – uyğun hüquq sahəsinin normaları ilə tənzimlənən müəyyən ictimai münasibətlərdir. Məhz hüququn tənzim etmə predmeti hüquq sisteminin sahələrə bölünməsinin başlıca meyarı hesab edilir (metod predmetdən asılıdır, ona görə də əlavə meyar kimi çıxış edir). Doğrudur, bəzən cinayət hüquq sahəsi

özünün tənzimləmə predmetinə yiyələnlənməsi «hüquq»undan imtina edir. Bu baxış çox qədim tarixi köklərə malik olub keçən əsrin görkəmli Alman kriminalisti, cinayət-hüquq normativ nəzəriyyəsini əsasını qoyanlardan sayılan Bindinqə məxsusdur. O, hesab edir ki, cinayət hüququnda qeyri-hüquqilik məntiqə və zamana görə cinayət qanunundan öncə, başqa hüquq sahələrində nəzərdə tutulan hüquq normasının pozulmasına görə cinayət qanunun sanksiyasında ifadə olunur. Bu baxışlar həm ümumi hüquq nəzəriyyəsində həm də cinayət hüququnda tam qəbul edilmişdir. Bu anlayışa uyğun olaraq ictimai münasibətlər cinayət hüququ ilə deyil başqa hüquq sahələri ilə (dövlət, inzibati, mülki və s.) tənzim edilir. Belə ki, O.E. Leyst hüquq sanksiyasına həsr olunmuş əsərlərində qeyd edir ki, cinayət-hüququ «tənzim etmir», bu münasibətləri ancaq qoruyur.[44] Cinayət hüququ hüququn başqa sahələri ilə tənzim edilən ictimai münasibətlərin qorunmasının vasitəsi kimi çıxış edir. A.A. Piontkovski həmçinin hesab edir ki, cinayət hüququ başqa hüquq sahələrinin mövcud normaları ilə qorunan hüquq qaydalarının pozulmasını cinayət hesab etməklə cinayət qanununun sanksiyası ilə belə hüquq sahələrinin normalarına xüsusi qüvvə verir [45].

Son illərdə hüquq ədəbiyyatında cinayət hüququnun tənzimetmə predmeti ilə bağlı daha geniş baxışlar yaranmışdır. Belə baxışlar cinayət hüququnun tənzimetmə predmetini onun qoruyucu münasibətinə müncər etmir. Belə ki, A.V. Naumov hesab edir ki, cinayət-hüququnun mühafizəedici münasibətlərindən başqa, cinayət-hüquqi tənzimetmə predmetinin daha iki növü mövcuddur. Bu, birincisi cinayət-hüquqi qadağalardan irəli gələn cinayət cəzasının qorxusu altında cinayəti törətməkdən çəkindirilən şəxsə qarşı olan ümumi xəbərdarlıq cinayət-hüquq münasibətidir. İkincisi isə, onun fikrincə tənzimləyici cinayət-hüquq normalarından yaranan və şəxslərin qanunayuğun hərəkətlərini nizama salan cinayət hüququnun tənzimedici münasibətləri-vətəndaşların əməlin cinayət olması və cəzalanmalı olmasını aradan qaldıran zəruri müdafiə, son zərurət, cinayətkarın

---

[44] Leist O.E. Sanctions in Soviet law / O.E. Leist - M .: Gosyurizdat, 1962 .-- P. 94.
[45] А.А. Пионтковски Уголовные право. Часть общая. М., 1925, с. 129-130

yaxalanması və başqa bu kimi hallarda zərər vurmaq yolu ilə ictimai təhlükəli qəsdlərdən müdafiə hüququnu təmin edir.

Fikrimizcə, cinayət-hüququnun tənzimetmə-predmetinin müəyyən növlərə ayrılması ilə əlaqədar cinayət-hüquqi tənzimetmə metodunun konkretləşdiriməsinə göstərilən cəhd daha perspektiv hesab edilməlidir. Belə ki, mühafizəedici cinayət-hüquqi sanksiyaların tətbiqi metodu ilə, yaxud da cinayət məsuliyyətindən və cəzadan azad etmə metodu ilə əlaqələndirilir (tibbi və tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqi də dəxil olmaqla).

Ümumxəbərdaredici cinayət-hüquq münasibətləri cinayət hüquqi qadağaları müəyyən etməklə, tənzimetmə cinayət-hüquq münasibətləri isə vətəndaşlara qəsd edənə daha ciddi zərər yetirməklə, ictimai təhlükəli əməllərlə fəal mübarizə aparmaq hüquqları verməklə əlaqələndirilir (məsələn, vətəndaşlara zəruri müdafiə hüquqları ayrılır).

## Hüquq münasibətlərinin əlamətləri

Hüquq münasibətləri ictimai münasibətlərin xüsusi növüdür. Bəs hüquq münasibətlərinin xarakterik əlamətləri hansılardır? Hüquq elmi və doktrinası onların bir sıra xarakterik əlamətlərini müəyyənləşdirir.

Birincisi, hüquq münasibətləri həmişə və bütün hallarda istinasız olaraq, hüquq normaları ilə bağlı olur. Hüquq münasibətləri hüquq norması ilə nəzərdə tutlan ictimai münasibətlərdir. Hüquq norması hüquq münasibətlərinin yaranması, dəyişdirilməsi və xitamı şərtlərini nəzərdə tutur. Göstərilən bu şərtlər normanın hipotezasında əksini tapır və onlar hüquqi faktlar adlanır. Elə burada subyektlərə aid tələb olunan əlamətlər nəzərdə tutulur, yəni hüquq münasibətlərinin iştirakçısı olmaq şərtləri (hüquq qabiliyyəti və fəaliyyət qabiliyyəti şərtləri). Normanın dispozisiyasında müvafiq hüquq münasibətlərinin iştirakçılarının hüquq və vəzifələri, habelə qadağa və məhdudiyyətlər nəzərdə tutulur. Hüquq normasının sanksiyası qoruyucu hüquq münasibətlərini modelləşdirir, bu o halda baş verir ki, münasibət iştirakçıları qadağaya əməl etməsin və ya hüquqi öhdəliyi yerinə yetirməmiş olsun. Normanın həm hipotezası, həm də dispozisiyası hüquq münasibətləri ilə tənzimlənən ictimai münasibətləri nəzərdə tutur. Məsələn, oğurluğu qadağan edən cinayət hüquq normasında hüquq münasibətlərinin obyekti kimi mülkiyyət münasibətıləri çıxış edir (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsi). Digər misal, ailə hüququnun norması valideyinlərin uşağın tərbiyəsi üzrə hüquq və vəzifələrini özündə əks etdirir. Bu normanın obyekti kimi valideyinlərlə uşaqlar arasındakı faktiki ailə münasibətləri çıxış edir (Azərbaycan Respublikası Ailə Məcəlləsinin 49-cu maddəsi). Hüquq münasibətlərinin bu obyekti ümümi şəkildə ailə hüququ normasında nəzərdə tutmuşdur.

Əgər faktiki ictimai münasibətlər (məsələn, alqı-satqı, icra və s. münasibətlər) hüquq normaları əsasında qurularsa, onda bu münasibətlər hüquq münasibətləri forması alır. Bu formanı yalnız o münasibətlər alır ki, həmin münasibətlər hüquq normaları ilə nizama salınır. Roman-german hüquq sistemli ölkələrin yanaşmasına

görə hüquq norması yoxdursa, onda hüquq münasibəti də mövcud deyil. Yəni, hər hansı münasibətlərin faktiki mövcudluğu heç də həmişə o münasibətin hüquq münasibəti olması anlamına gəlmir. Hüquq münasibəti elə bir formadır ki, burada mücərrəd xarakterli hüquq forması konkret olaraq ifadə edilir. Lakin heç də bütün ictimai münasibətlər hüquq normalarının köməyi ilə tənzimlənir. Bu münasibətlərin müəyyən qrupu əxlaq, adət və s. normaların vasitəsi ilə nizama salınır. Belə halda, şübhəsiz ki, hüquq münasibətlərindən danışmaq olmaz. İctimai münasibət ona görə hüquq münasibəti adlanır ki, o, hüquq normaları ilə tənzimlənir. "Hüquq münasibətləri ilə hüquq norması arasındakı vacib qarşılıqlı əlaqə hər bir konkret hüquq münasibətlərinin qanunçuluq tələbi nöqteyi-nəzərdən vacib tərkib hissəsidir"[46].

İkincisi, hüquq münasibətləri hüquq normalarını realizə etdiyinə və onların tələbinə uyğun olaraq meydana gəldiyinə görə hüquq münasibətləri həmişə iradəvi və şüurlu xarakter daşıyır. Bu onunla izah olunur ki, hüquq münasibətləri ideoloji münasibətlərin bir növüdür. İdeoloji münasibətlər həmişə iradəvi xarakter daşıyır. İdeoloji münasibət növü kimi hüquq münasibətləri insanların şüur və düşüncələrindən keçir və son məqamda başa düşülmüş, dərk edimiş, beləliklə də, iradəvi münasibət kimi çıxış edir.

Hüquq münasibətlərinin iradəvi xarakter daşıması iki mənada başa düşülməlidir: geniş və ya obyektiv mənada; məhdud və ya subyektiv mənada. Hüquq münasibətlərinin obyektiv və ya geniş mənada iradəvi xarakterə malik olması onu ifadə edir ki, bu münasibətlərdə dövlət iradəsi əks olunur. Belə ki, dövlət idarəsi ümümməcburi davranış qaydalarında, yəni hüquq normalarında təzahür edir. Bu normalar hüquq münasibəti iştirakçılarının hüquq və vəzifələrini tənzimləyir. Həmin normalar onlar üçün məcburi qüvvəyə malikdir.Bu normalar vasitəsi ilə də dövlət idarəsi konkret hüquq münasibətlərində öz əksini tapır. Özü də dövlət idarəsi hüquq münasibəti iştirakçılarının iradəsindən asılı deyil. Bu mənadan və baxımdan o, obyektiv iradədir.

---

[46] Иванова З.Д. Законность –основа правоотношений в деятельности милиции. М.,1987.с.5

Hüquq münasibətlərinin məhdud və ya subyektiv mənada iradəvi xarakterə malik olmsı onu ifadə edir ki, bu münasibətlərdə tərəflərin (iştirakçıların) subyektiv, fərdi-şəxsi və konkret iradələri əks olunur. Hüquq normasının mövcudluğu hələ öz-özlüyündə avtomatik olaraq hüquq münasibətinin meydana gəlməsinə və sonra isə fəaliyyət göstərməsinə dəlalət etmir. Bunun üçün vacibdir ki, tərəflərdən heç olmaasa biri, öz iradəsini ifadə etsin və bildirsin. K.Marksın fikrincə, forması müqavilə olan hüquq münasibətləri elə iradəvi münasibətlərdir ki, burada iqtisadi münasibətlər ifadə olunur. O göstərirdi ki, əmtəələrin mübadiləsi üzrə hüquq münasibətləri iradəvi akta əsaslanır. Bu cür münasibətlər iradəvi münasibətlərdir[47]. Hegel iradəni hüququn çıxış nöqtəsi adlandırırdı[48]. Engels belə hesab edirdi ki, insanı fəaliyyət göstərməyə vadar edən nə varsa, hamısı mütləq onun beyninə düşür və iradəsinə təsir edir. O yazırdı ki, cəmiyyət tarixində düşüncəyə və şüura malik olan, qarşılarına müəyyən məqsəd qoyan, təfərrüatına qədər düşünən və ya ehtirasla hərəkət edən insanlar fəaliyyət göstərirlər. Burada dərk edilmədən, düşünülmədən və arzu olunmadan məqsədsiz heç nə edilmir[49].

Yaranmamışdan əvvəl hüquq münasibətləri əvvəlcə tərəflərin şüurundan və iradəsindən keçir. Sonra tərəflərin iradəvi aktı nəticəsində bu münasibətlərin əmələ gəlməsinin əsası və başlanğıcı qoyulur. Deməli, hüquq münasibətləri şüurlu-iradəvi mahiyyətə malik olan hadisədir.

Bir qayda olaraq, tərəflərin iradəsi hüquq münasibətinin yaranması və həyata keçirilməsi prosesinin bütün mərhələlərində təzahür edir. Məsələn, alqı-satqı, podrat, daşıma, kirayə, icarə, borc, kredit və digər müqavilələr əsasında yaranan hüquq münasibətlərində tərəflərin iradəsi prosesin bütün mərhələlərində ifadə olunur. İctimai münasibətlərin hərəkətini ifa edən bu cür hüquq münasibətləri mübahisəsiz olaraq həmişə iradəvi münasibətlərdir. Burada tərəflərin iradəsi hüquq münasibətinin yaranmasından bu münasibətin həyata keçirilməsi başa çatanadək bütün mərhələlərdə ifadə olunur.

---

[47] Маркс К., Энгельс Ф. Том 23.С.94.
[48] Гегель Г. Соч. Том VII.М.,1970. С.31
[49] Маркс К., Энгельс Ф. Том 14.С.671

Amma elə hüquq münasibətləri vardır ki, burada tərəflərin iradəsi prosesin hüquq münasibətinin yaranması kimi mərhələsində təzahür etmir. Bu cür münasibətlər tərəflərin iradəsindən asılı olmadan əmələ gəlir. İradə yalnız hüquq münasibətlərinin həyata keçirilməsi və icra mərhələsində ifadə olunur. Belə ki, tərəflərin iradələrindən asılı olmadan əmələ gələn qarşılıqlı hüquq və vəzifələr onların iradələri əsasında həyata keçirilir, icra edilir. Ictimai münasibətlərin qorunmasını və möhkəmləndirməsini ifadə edən hüquq münasibətləri bu cür münasibətlərə misal ola bilər. Məsələn, vətəndaş minik avtomobilini sürərkən öz qonşusunun əmlakını zədələyərək, onu yararsız hala salır və zərər vurur. Bununla delikt öhdəliyi, yəni zərər vurmaq nəticəsində hüquq münasibəti yaranır. Bu münasibətə görə vətəndaş (zərərvuran) qonşunun (zərərçəkmişin) əmlakına vurduğu zərərin əvəzini ödəyir. Prosesin bu mərhələsində, yəni zərərin əvəzini ödəmək vəzifəsinin icrası mərhələsində artıq iradə ifadə olunur. Belə ki, vətəndaş (zərərvuran) öz vəzifəsini başa düşərək icra edir. Baxmayaraq ki, burada prosesin bütün mərhələlərində tərəflərin iradəsi ifadə olunmur, bu cür münasibətləri iradəvi münasibətlər hesab etmək olar.

O.S. İoffe göstərir ki, ictimai istehsal münasibətlərinin qorunmasını ifadə edən hüquq münasibətləri (məsələn, delikt öhdəlikləri və s.) qeyri-iradəvi münasibətlərdir. Müəllif bunu onunla izah edir ki, həmin münasibətlər tərəflərin iradəsindən asılı olmadan əmələ gəlir. Bundan əlavə o, göstərir ki, K.Marks yalnız müqavilə münasibətlərini iradəvi münasibətlər hesab edir. Onun fikrincə, K.Marksın sözlərindən belə nəticə çıxarmaq olmaz ki, bütün hüquq münasibətləri iradəvi münasibətdir. Alimin irəli sürdüyü fikir və mülahizələr, şübhəsiz ki, həqiqətdən uzaq olub inandırıcı görünmür. O, Marksın fikrindən düzgün nəticə çıxarmır. Belə ki, Marks heç bir vaxt "yalnız müqavilə münasibətlərinin (hüquq münasibətlərinin) iradəvi münasibət olması barədə" fikir söyləmir. Marks, sadəcə olaraq, həmin münasibətlərin iradəvi olmasını göstərir[50].

---

[50] Иоффе О.С. Правоотнашение по советскому грждайскому праву // В книге: Иоффе О.С.Гражданское право. Избранные труды. М.,2000.С.571-576

Üçüncüsü, hüquq münasibətləri konkret şəxslər arasında mövcud olan ikitərəfli (qarşılıqlı) münasibətlərdir. O, subyektsiz (şəxssiz) mücərrəd əlaqə deyildir. İstənilən hüquq münasibəti, heç olmazsa, iki subyekt arasında yaranır. Həmin münasibətlərdə tərəf rolunda çıxış edən subyektləri həmişə konkret olaraq müəyyən etmək mümkündür. Hətta belə onları adbaad çağırmaq da olar. Məsələn, alıqı-satqı hüquq münasibəti alıcı-satıcı, icarə hüquq münasibəti icarəyə verən – icarəçi, daşıma hüquq münasibəti daşıyıcı –yük göndərən, mülkiyyət hüquq münasibəti mülkiyyətçi -əhatə dairəsi bilinməyən  üçüncü şəxslər ("hamı və hər kəs") və s. arasında əmələ gəlir. Özü də subyektlərdən (hüquq münasibəti iştirakçılarından) biri ya hüquqlara malik olur, digəri isə vəzifə daşıyır, ya da ki hər iki subyekt eyni vaxtda və zamanda həm hüquqlara malik olur, həm də vəzifələr daşıyırlar. Məsələn, bank əmanəti müqaviləsindən əmələ gələn hüquq münasibətində bank yalnız vəzifə (əmanəti əmanətçiyə qaytarmaq vəzifəsi) daşıyır, əmanətçi isə yalnız hüquqa (əmanətinin faizi ilə verilməsini tələb etmək hüququna) malikdir. Alqı-satqı, icarə, podrat, kirayə və s. müqavilələrdən yaranan münasibətlərdə çıxış edən tərəflər eyni vaxtda həm hüquqlara malik olur, həm də vəzifəflər daşıyırlar.

Hüquq və vəzifələr hüquq münasibətlərində iştirak edən subyektləri qarşılıqlı surətdə bir-biri ilə bağlayır və əlaqələndirir. Hüquq elmi onları subyektiv hüquq və hüquqi vəzifə adlandırır. Bax, bu hüquq və vəzifələrin vasitəsi ilə hüquq münasibəti iştirakçıları arasında həmişə ikitərəfli əlaqə yaranır. Bu əlaqənin özü elə hüquq münasibəti deməkdir. Elə bir münasibət ki, bu münasibətdə iştirak edən tərəflərdən birinin malik olduğu hüquq digər tərəfin daşıdığı vəzifəyə uyğun gəlir və ya əksinə, əgər tərəflərdən biri hər hansı müəyyən hüquqa malik olarsa, onda hökmən və mütləq digər tərəfin üzərinə bu hüquqa uyğun gələn vəzifə həvalə edilir və qoyulur. Məsələn, banka əmanətə pul qoyan vətəndaş (əmanətçi) həmin pulun qaytarılmasını tələb etmək hüququna malikdir. Bankın üzərinə əmanəti qaytarmaq kimi vəzifə düşür ki, bu vəzifə vətəndaşın malik olduğu hüquqa uyğun gəlir (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 944-cü maddəsi).

Hüquq münasibəti həmişə ikitərəfli əlaqə deməkdir. Bu münasibətdə iştirak edən tərəflər bir-biri ilə qarşılıqlı hüquq və vəzifələrlə bağlıdır. Onların hərəkətləri əlaqələndirilir, uzlaşdırılır, idarə olunur. Göstərdiyimiz cəhət və xüsusiyyətlər digər ictimai münasibətlərdə (məsələn, siyasi, əxlaq, estetik və s. münasibətlərdə) müşahidə olunmur.

İctimai münasibətlərin digər növlərində olduğu kimi, hüquq münasibətləri də müxtəlif subyektlər- dövlət, dövlət və qeyri-hökumət təşkilatları, vətəndaşlar arasında əlaqələri təşkil edir. Lakin digər əlaqələrdən fərqli olaraq bu əlaqə hüquqi xarakter daşıyır, hüquq normalarına əsaslandığına görə hüquqi əlaqə hesab edilir. Hüquq ictimai münasibətlərə təsir edərək insanlar arasındakı faktiki ictimai əlaqələrə hüquqi forma verir. Bu mənada hüquq münasibətləri real əlaqələrin hüquqi ifadəsidir.

Hüquq münasibətlərinin tərəfləri həmişə subyektiv hüquqlara malik malik olur və hüquqi öhdəliklər daşıyır. Hüquq münasibətlərinin məzmunu onun iştirakçızlarının idarəsinin ifadəsi, hüquq normasının fəaliyyəti və habelə hüquqtətbiqedici orqanların müvafiq qərarları nəticəsində formalaşır. Onu da qeyd etmək lazımdır ki, hüquq münasibətlərinin meydana gəlməsi və həyata keçirilməsi üçün sadalanan bütün əsasların eyni zamanda mövcud olması mütləq deyil. Adətən hüquqi nizamasalma hüquqtətbiqedicinin müdaxiləsi olmadan baş verir. Normativ hüquqi əsas olmadıqda hüquq münasibəti qanunvericilikdəki boşluqları formalaşdırır. Əgər hüquq münasibətlərinin iştirakçıları arasındakı münasibət dispozitiv normalarla nizama salınırsa, iştirakçılar qarşılıqlı hüquq və vəzifələrin məzmununu özləri müəyyən edə bilərlər.

Tərəfələrin dəqiq müəyyən olunması dərəcəsi müxtəlif ola bilər:

1) vəzifə daşıyan tərəfin dəqiq müəyyən edilməsi;

2) yalnız səlahiyyətli tərəfin dəqiq müəyyən edilməsi. Vəzifə daşıyan tərəfin müəyyən edilməməsi;

3) Hər iki tərəfin dəqiq müəyyən edilməsi.

Bilavasitə qanundan irəli gələn hüquq münasibətləri çox az konkretləşdirilir. Müvafiq hallarda hüquq normasının ünvanladığı bütün şəxslər hər hansı şərtlərən

asılı olmayaraq ümumi hüquqlara malik olur və bərabər vəzifələr daşıyır. Buna ən səciyyəvi nümunə konstitusion hüquq və azadlıqlardır. Sonuncu baxış nöqteyi-nəzərindən biz ayrı-ayrı vətəndaşlara münasibətdə normativ göstərişləri hüquq münasibətləri müstəvisinə köçürürük. Hər bir vətəndaş konstitusiyanın ona verdiyi imkanlardan nə dərəcədə istifadə etməyi özü müəyyən edir.

Konkretləşdirmənin orta dərəcəsində təkcə hüquq münasibətlərinin subyekti deyil, həm də obyekti də fərdiləşdirilir. Məsələn, mülkiyyət hüquq münasibətlərində mülkiyyətçi və əşya-mülkiyyətin obyekti müəyyən olunur.

Konkretləşdirmənin ən yüksək dərəcəsi o hallarda mövcud olur ki, vəzifə daşıyan şəxsin məhz necə davranmalı olduğu dəqiq məlum olunur. Burada obyekt, hər iki tərəf və onlar arasındakı hüquqi əlaqənin məzmunu fərdi müəyyən olunur. Belə ki, podrat müqaviləsinə görə bir tərəf (podratçı) digər tərəfin tapşırığını yerinə yetirməli, müəyyən işi görməli və onun nəticəsini sifarişçiyə çatdırmalıdır, sifarişçi isə işin nəticəsini qəbul etməli və razılaşdırılmış muzdu ödəməlidir. (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 752–ci maddəsi). Digər misal, alqı-satqı müqaviləsinə görə satıcı əşyanı alıcının mülkiyyətinə verməyi, alıcı əşyanı qəbul edib, əvəzində müəyyən edilmiş pul məbləğini (qiyməti) ödəməyi öhtəsinə götürür. (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 567–ci maddəsi).

Dördüncüsü, hüquq münasibətləri həmişə fərdidir, belə ki: a) tərəflər şəxsləndirilmişdir, başqa sözlə onlar konkret hüquqi və fiziki şəxslərdir; b) onların şəxsi hüquq və vəzifələri var; c)hüquq münasibətlərinin obyekti tərəflərin hüquq və vəzifələrinin yaranma səbəblərinə görə fərdiləşdirilir.

Beşincisi, hüquq münasibətləri mahiyyətcə elə bir ictimai münasibətləridir ki, burada subyektiv hüquqların həyata keçirilməsi və hüquqi öhdəliklərin icra edilməsi dövlət məcburetməsinin imkanları ilə təmin edilir və lazım gəldikdə isə qorunur. Əksər hallarda subyektiv hüquqların həyata keçirilməsi və hüquqi öhdəliklərin icra edilməsi dövlətin məcburiyyət tədbirləri olmadan baş tutur. Əgər buna zərurət yaranarsa maraqlı tərəf hüquqi işin baxılması , subyektiv hüquq və

hüquqi öhdəliklərin dəqiq müəyyən edildiyi qərarın- hüquq tətbiqedici aktın çıxarılması üçün səlahiyyətli dövlət orqanına müraciət edə bilər[51].

İctimai münasibətlərin digər növləri, dövlət məcburetmə qüvvəsi ilə təmin edilmə xüsusiyyətindən məhrumdur. Şübhəsiz ki, dövlət hüquq münasibətlərinin hamısını qorumur və təmin etmir. Məsələn, hüquq pozuntularından əmələ gələn münasibətləri dövlət mühafizə etməkdə maraqlı deyil.

Beləliklə, göstərilən əlamətlər bizə hüquq münasibətlərinin ictimai münasibətin digər növlərindən ayırmağa və fərqləndirməyə, habelə cəmiyyətin hüquqi sistemindəki rolunu dəqiq müəyyən etməyə imkan verir. Bu əlamətlər nəticəsində müəyyən olunur ki, hüquq münasibətləri ictimai münasibətlərin xüsusi növüdür.

---

[51] Теория государства и права. Учебник/ Под ред. проф. М. Корельского и проф. В.Д.Перевалова.М., 2000.С 350

## Hüquq münasibətləri hüquq normalarının realizə forması kimi

Hüquq normasının hüquqla tənzimlənən ictimai münasibətlərlə əlaqəsi hüququn mahiyyətini və onun cəmiyyətin həyatındakı yerini müəyyən edən dərin ümumi əlaqədir. Bu əlaqənin əks olunması kimi hüquq münasibətləri, yəni hüquq norması ilə tənzimlənən ictimai münasibətlər çıxış edir.

Hüquq ədəbiyyatında hüquq münasibətlərinin anlayışına çoxlu təriflər verilir. Bu barədə əvvəlki paraqrafda daha ətraflı bəhs etmişdir. Hal-hazırda hüquq münasibətləri haqqında vahid müddəa bundan ibarətdir ki, hüquq münasibətləri – hüquq normaları ilə tənzimlənən ictimai münamsibətlərdir. Buradan belə nəticə çıxır ki, hüquq münasibətlərinin mahiyyətini müəyyən edən əsas əlaqələrdən biri hüquq norması ilə hüquq münasibəti arasındakı əlaqədir. Bu zaman sual yaranır. Cəmiyyətin həyatında müxtəlif normaların məcmusu və ya sistemi fəaliyyət göstərir: əxlaq normaları, texniki normalar sistemi ilə tənzimlənən münasibətlər haqqında normaların realizəsinin spesifik forması kimi ümumiləşdirilmiş anlayış formalaşmayıb. Belə anlayış yalnız hüquq münasibətdə hüquq normalarının məcmusu kimi meydana gəlir. Niyə məhz burada belə anlayış öz-özündə elm və təcrübənin fundamental anlayışlarından birini ifadə edən anlayış meydana gəlir və inkişaf edir? Bu hüququn cəçmiyyətin həyatındakı yeri və hüquq normalarının xüsusiyyətləri ilə şərtlənir, yerinə yetirilməsi isə dövlət məcburiyyət tədbirlərinin tətbiqinin mümkünlüyünü təmin edir.

Elm və texnalogiyanın inkişafı çərçivəsində hüquq əhəmiyyəti cəmiyyətin həyatının təşkilinin əsas alətlərindən biri kimi artmaqdadır. Hüququn tətbiqinin yeni geniş sahələri meydana gəlir (məsələn, bələdiyyə hüququ). Onun metod və vasitələrinin zənginləşdirilməsi zərurəti meydana gəlmişdir. Bununla yanaşı cəmiyyətdə hüquqi tənzimetmənin quruluşu dəyişir.

Hüquq normasının spesifik cəhəti onun tətbiqinə məcburetmənin dövlətin məcburetmə qüvvəsi ilə təmin olunmasıdır. O, hüquq normaları ilə tənzimlənən münasibətlərin mümkünlük və zərurətini dəqiq müəyyən edir. Hüquq ədəbiyyatında hüquq normasının təmin olunması əlaməti kimi dövlət

məcburiyyətinin tətbiqinin mümkünlüyündən imtina edilməsi cəhdləri də olmişdur. Belə ki, sovet hüquq ədəbiyyatında hüquq normalarının həyata keçirilməsi üçün əsas gücün "avtoriret" və xalq kütlələrinin inamı olduğu göstərilir.[52] Bu barədə onu qeyd etmək yerinə düşər ki, «avtoritet» və xalq kütlələrinin inamı daha çox ənənəvi hüquq sisteminə malik olan ölkələr üçün səciyyəvidir. .[53]

Hüquq norması ilə hüquq münasibətlərinin əlaqəsinin səciyyəsi daha çox normaların realizəsi kimi müəyyən olunur. Həqiqətən də, norma özündə davranış qaydasını müəyyən edən əmr, norma özündə davranış qaydası müəyyən edən əmr, buyuruq ifadə edir. Norma obyektiv zərurətdən doğan subyektiv şüurun və bubiliklərdən müəyyən məqsədlərə nail olunması üçün istifadə edilir. Hüquq bütövlükdə cəmiyyətin iqtisadi quruluşu ilə şərtlənir. Lakin, o, ictimai inkişaf qanunlarının dərk edilməsi dərəcəsini və hüquq quruculuğun özünəməxsus qanunauyğunluqlarını əks etdirir.

"Hüquq təkcə ümumi iqtisadi vəziyətə uyğun olmalı, onu əks etdirməli deyil, habelə öz-özlüyündə daxili ziddiyətlərlə təkzib edilməyən daxili uyğunluğu əks etdirlməlidir. Bunun üçün, buna nail olmaq üçün iqtisadi münasibətlərin dəqiq əks olunması hər şeydən daha çox pozulur."[54]

Əslində normayaradıcı fəaliyyət təbiət və cəmiyyətin inkişafı qanunlarının elmi şəkildə öyrənilməsi əsasında qurulmalıdır. Bu zaman hüquq normasının olduqca mürəkkəb amillərin kompleksi kimi öyrənilməsi mümkünlüyü meydana gəlir. Beləliklə, cəmiyyətin qarşıya qoyduğu məqsədlərə nail olmaq üçün insanların davranışına təsir edən daha səmərəli vasitələrin müəyyən olunması mümükün olur. Normada təkcə iqtisadi inkişafın qanunauyğunluğu deyil, həm də daha geniş fərdi və kollektiv psixoloji biliklərlə şərtlənən amillər və maddi dünyanın inkişaf qanunları əks olunur. Normanın hüquqi qüvvəsinin nəticəsi, onun sosial səmərəliliyinin müəyyən edilməsi üçün meyar aşağıdakı sualların qoyuluşudur:

1. İnkişafın obyektiv qanunauyğunluğu nə qədər dərk olunub?

---

[52] Шебанов А.Ф. Форма советского прова. М., 1968. С. 99-101
[53] Марченко М.Н. Курс сравнительного правоведения. М., 2002. С. 723.
[54] Халфина Р.О. Общее учение о провоотношении. М.,1974.С.53

2. Onlar qarşıya qoyulmuş məqsədə çatmaq üçün necə istifadə olunub?
3. Lazimi hüquqi vasitə və tədbirlər tətbiq edilib?

Normaların fəaliyyətinin nəticəsi müxtəlif normalarda əks oluna bilər. Belə formalardan biri və vacibi ictimai münasibətlərə hüquq normasının formasının verilməsi, geyindirilməsidir. Norma ilə hüquq münasibətinin yuxarıda göstərilən əlaqəsi normanın realizə olunması adlanır. Buradan heç də o nəticəni çıxarmaq olmaz ki, norma yalnız və yalnız hüquq münasibətlərində realizə olunur. Bəzi ədəbiyyatlarda hüququn obyektiv reallığı «onun fərdlərin şüuruna münasibətindədir» kimi qeyd olunur. Hüquq normasının mövcudluğu cəmiyyətin üzvlərinə tərbiyəedici təsir göstərir. Hüquq norması siyasi, əxlaqi baxışları və cəmiyyətin əqidəsini özündə əks etdirməklə, onların inkişafına istiqamətlənərək böyük ideoloji əhəmiyyət daşıyır. Lakin mormanın bu cür fəaliyyətində hüququn özünəməxsusluğu hələ əks olunmur. Burada o ideoloji təsirin bir vasitəsi kimi çıxış edir. Hüquq normasının özünəməxsusluğu omnda əks olunur ki, o, bilavasitə fiziki və hüquqi şəxslərin davranışına istiqamətlənərək davranış üçün müəyyən əsaslar yaradır.

Hüquq insanların davranışını yönəldən amil kimi nəzərdən keçirilməsi həm hüquqi psixologiyanın predmeti, həm də fərdi və sosial psixologiya ilə hüququn əlaqəsi kimi nəzərdən keçirilir.

Şübhəsiz ki, hüququnu bilmək şəxslərin davranışına güclü təsir edir. Hüququn bu qoruyucu funksiyasından çıxış edərək geniş miqyaslı hüquq təbliğat aparılı, əhalinin geniş dairələri hüququn əsas müddəaları ilə tanış olur. hüquq normasının şəxslərin davranışına təsirinin daha dəqiq müəyyən edilməsini mümkün edən metodların işlənib hazırlanması hüquq elminin digər ictimai və təbiət elmləri ilə əməkdaşlığının aktual vəzifələrindən biridir.

Hüquq münasibətləri özündə hüquq norxmasının fəaliyyətinin nəticəsini ifadə edir. Bunu heç də bəsit müddəa kimi qəbul etmək olmaz. Əlbəttə, hüquq münasibətləri müxtəlif amillərin fəaliyyəti nəticəsində meydana gəlir: cəmiyyətin həyatının maddi şəraiti; şəxs və şəxslərin olduğu müəyyən şərait; tərbiyə, adət, vərdiş, psixofiziki xüsusiyyət və s. bu halda bizim üçün maraqlısı budur ki, real,

həyati münasibətlər yalnız hüquq normalarına müvafiq həyata keçirilir. Məhz burada normanın realizəsi əks olunur., o müəyyən davranış aktında zərurətə çevrilir. Göstərilən nöqteyi nəzərdən hüquq münasibətlərinə normanın hüquqi qüvvəsinin, fəaliyyətinin nəticəsi kimi baxılmalıdır.

Nə qədər ki, hüquq münasibətləri normalnın hüquqi qüvvəsinin fəaliyyətinin nəticəsidir, tam hüquqla demək olar ki, hüquq münasibətlərində normanın realizəsinin özünəməxsusluğu məhz burada normanın öz real mövcudluğunu əldə etməsi, müəyyən davranış aktında təcəssüm olanması ilə bağlıdır. Bu normanın realizəsinin özünəməxsusluğudur. Normanın mücərrəd, ümumi göstərişi konkretləşərək həyati qüvvə əldə edir.

Hüquq münasibətlərində normanın realizə olunmasının xüsusiyyətləri tənzim olunan münasibətin xarakteri ilə müəyyən olunur hüquq münasibətlərində realizə olunmaq hələ hüquq normasının yeganə vasitəsi deyil. Sonuncu, davranışa səbəb olan əsaslara elə təsir göstərə bilər ki, hüquq münasibətlərinin meydana gəlməsinə mane olsun. Normanın belə ümumqoruyucu əhəmiyyəti hüquq pozuntusuna görə məsuliyətin müəyyən edilməsidir. Ümumi müddəalar və prinsiplər kimi baxılan bir çox normalar bilavasitə hüquq münasibətlərində deyil, konkret hüquq və vəzifələr müəyyən edən digər normalarda realizə olunur. Belə ki, konstitusiyada təsbit olunan əmək hüququ əmək hüququ normaları cərgəsinə daxil olan konkret münassibətlərdə realilzə olunur. Məsələn, işə qəbulun şərtləri, əməyin şərtləri, iş vaxtının rejimi, işdən azadetmənin əsasları və s.

Hüquq sistemində prinsipial müddəaları müəyyən edən normanın seçilməsivə bilavasitə hüquq münasibətlərində deyil, bu prinsipial müddəalara əsaslanan aktların məzmunundakı normalarda realizə olunması vacib əhəmiyyət kəsb edir. Belə ki, normativ hüquqi aktların qanunauyğunluğu meyarını müəyyən edir, bu müddəaları detallaşdırır, təhlil edilən normanın tətbiqi təcrübəsinin əsas istiqamətlərini müəyyən edir. Konstitusion normalar əsasında meydana gələn “ümumi hüquq münasibətləri” yaratmağa, təşkil etməyə cəhd etmək, mahiyyətcə onları ümumi normalar sistemində əridərək əhəmiyyətini azaldır.

Əgər bu əsas normalarla hüquq münasibətlərində realizə olunan və əsas prinsiplərin həyata keçirilməsini təmin etməyə çağıran, konstitusiya normalarında təsbit olunan normaları müqayisə etsək cəmiyyətin həyatının bütün sahələrində ümumi konstitusion prinsipləri normalarda tam və səmərəli əks etdirən bilavasitə hüquq münasibətlərində realizə olunan həqiqi qəraraların qəbuluna imkan yaratdığını görərik.

Müxtəlif ictimai münasibətlər sferasında fiziki və hüquqi şəxslərin hüquqi vəziyyətini müəyyən edən normalar hüquq münasibətlərində bilavasitə realizə olunmur. Belə normalar normanın hüquq münasibətlərində realizə olunmasının ilkin şərtlərini müəyyən edir, lakin özləri müəyyən münasibətləri tənzim edən digər normalarda realizə olunur. Belə normaların seçilməsi normanın hüquq münasibətlərində realizə olunmasının dəqiq təhlili üçün vacibdir.

Normanın hüquq münasibətlərində realizəsinin təhlili hüquqauyğun və hüquqazidd davranış hallarında belə realizənin keyfiyyət fərqlərini müəyyən etməyə imkan verir.[55]

Hüquq ədəbiyyatında hüquq münasibəti anlayışı hüquq münasibətinin hüquqauyğun və ya hüquqazidd davranış nəticəsində meydana gəlməsindən asılı olmayaraq vahid anlayış kimi şərh edilir. Lakin hüquq münasibətlərinin göstərilən formaları arasında əhəmiyyətli fərqlər var. Birinci halda vətəndaşlar dövlət tərəfindən təşviq edilən və ya icazə verilən münasibətlərə gətirir. Onlar qanunun göstərişinə müsbət cavab verir və ya öz idarələrini qanunla icazə verilən çərçivədə icra edir. İkinci halda onlar dövlət tərəfindən qadağan olunan, qanunu pozan əməllərə yol verirlər. Birinci halda söhbət hüquqauyğun davranışdan, tamamilə normaya müvafiq davranışdan, ikinci halda isə, qanunla mühakimə olunan və törədilməsi müvafiq cəza tədbirinə səbəb olan davranışdan gedir.

"Normanın realizəsi onu ifadə edir ki, müəyyən fəaliyyət hüquq münasibətlərində təsbit olunan modelə müvafiq həyata keçirilir."[56] Əgər real davranış norma ilə yol verilən hüdudlardan kənara çıxarsa, şəxslər üçün

[55] Халфина Р.О. Общее учение о провоотношении. М.,1974.С.58.
[56] Ткаченко Ю.Г. Методологические вопросы правоотношения. М.,1980.С.42.

arzuolunmaz nəticələr meydana gətirər. Bu vəziyyət o zaman yaranır ki, norma müəyyən davranışı qanun pozuntusu olduğuna görə cəza müəyyən edərək qadağan edilir. Arzuolunmaz nəticələrin baş verməsi üçün qanunverici cəmiyyətin həyatında müəyyən davranış aktı seçir. Cinayət hüququ normasını müəyyən etməkdə məqsəd özlüyündə norma ilə nəzərdə tutulan münasibətlərin meydana gəlməsinə mane olmaq, əgər o meydana gələrsə, onun tezliklə aşkar edilməsinə nail olmaq və əgər bu mümkündürsə təqsirli şəxslərin cəzalandırılmasıdır. Bu cür normaların realizə xüsusiyyətləri daha çox cinayət hüquq normaları ilə realizə olunan münasibətlərə xasdır.

A.A. Piontkovski qeyd etmişdir ki, törədilən hüquq pozuntusuna müvafiq cəza müəyyən edən cinayət qanunları digər hüquq sahələrində olan və pozulması cinayət hesab edilən norma və münasibətlərə xüsusi və əhəmiyyət verir.[57]

Bu və ya digər davranışı qadağan edən normanın real həyatda təsirini göstərmək, törədilmiş əməlin nəticələrini aradan qaldırmaq və münasibətləri digər müstəviyə - törədilmiş hüquqpozucu fəaliyyətə görə cəza tətbiq etməklə əlaqədar dövlət və şəxs arasındakı münasibətlər sferasına köçürtməkdən ibarətdir. Hüquqauyğun fəaliyyət prosesindən kənara çıxmağa görə məsuliyyət nəzərdə tutan normanın realizəsindən məqsəd norma ilə müəyyən edilmiş ictimai münasibət modelinə müvafiq real davranışa nail olmaqdır.

Müəyyən davranışı qadağan edən normanın hüquq münasibətlərində realizəsi başlıca olaraq qanunçuluğa riayət edilməsinin xüsusi vasitələri ilə əlaqədardır. Əgər söhbət cəmiyyətin həyatından bu və ya digər mənfi hadisələri aradan qaldırmaqdan gedirsə, bu zaman norma qoruyucu və tərbiyəedici fəaliyyəti nəticəsində hüquq münasibətlərində daha az həyata kemirilməlidir. Hüquq münasibətlərinin realizəsi bütövlükdə dövlət və təqsirləndirilən şəxs arasındakı münasibətlər sferasında baş verir.

Bəhs etdiyimiz normanın hüquq münasibətlərində realizəsi dövlətin xüsusi fəaliyyət sferası ilə əlaqədardır. Həyatın bütün sahələrində yaranan çoxşaxəli mürəkkəb münasibətləri–hüquqauyğun fəaliyyəti tənzimləyən normanın hüquq

---

[57] А.А. Пионтковский. Правоотношения в уголовном праве.»Правоведение».1962.№2.С.86-96.

münasibətlərində realizəsi daha geniş səciyyə daşıyır. Hüququn yaradıcı rolu öz əksini onda tapır ki, məhz belə normalar daha çox yer tutur və hüquqi tənzimetmənin yeni sahələri yaranır və inkişaf edir.

Daha geniş münasibətlər dairəsində hüquq subyektlərə bu və ya digər davranış növü seçmə imkanı verir. Hər bir davranış növü üçün model yaradılır və bu növ hüquqi nizamasalmanın ümumi sisteminə daxil olur. Davranış növünün seçilməsi imkanları obyektiv şərtlərlə və subyektiv amillərlə şərtlənir. Obyektiv şərtlər heç də birmənalı olaraq fiziki və hüquqi şəxslərin davranışı səbəbindən baş vermir. Buna görə də davranış hüquq norması ilə necə tənzimlənməsindən asılıdır. Lakin iştirakçılar müəyyən davranış növünü seçərkən öz münasibətrlərini bu davranış növü üçün müəyyən edilmiş modelə uyğun qurmalıdılar. Bu zaman hüquq müəyyən davranış növünü stimullaşdırmır, müxtəlif davranış modelləri yaradır və seçim imkanını münasibət iştirakçılaına verir.

Normalarda müəyyən olunan davranış modelinin özü dəqiq müəyyən olunmuş ola bilər və ya iştirakçılara  məlum hədlər çərçivəsində qərar qəbul etmək imkanı verə bilər. Misal kimi dispozitiv normalara istinad etmək kifayətdir.

## Fəsil III. Hüquqi tənzimetmə sistemində hüquq münasibətinin yeri.

Hüquq münasibətlərinin hüquq normasının realizəsi kimi xarakteristikası ictimai münasibətlərin hüquqi forma əldə etdiyini əks etdirir. Hüquq münasibətlərinin hüquq normaları ilə tənzimlənən ictimai münasibət kimi təhlili, ona anlayış verilməsi, səciyyəvi əlamətlərinin müəyyən edilməsi, vahid hüquqi forma və məzmunun müəyyən edilməsi hüquqi tənzimetmə sistemində hüquq münasibətlərinin yerini müəyyən etmək imkanı verir. Bu problem hüquqi tənzimetmə prosesinin tədqiqatında açar problemlərdən biri kimi həmişə hüquqşünasların diqqətini çəkmişdir. Bu problemin həlli üzrə yaranan suallara müəlliflər tərəfindən verilən cavablarda fərqlər olsa da, aşağıdakı ümumi istiqamətləri seçmək olar.

Birincisi, hüquq münasibətlərinə hüquqi tənzimetmənin, ictimai münasibətlərə təsirin vasitəsi kimi, normanı təşkil edən hüquq və vəzifələrin məcmusu kimi yanaşılır. Bu yanaşmanın müəllifləri hüququn tərifinə hüquq münasibətlərinin də daxil edilməsini zəruri hesab edirlər.[58] Beləliklə, hüquq münasibətlərinə hüquq və vəzifələrin məcmusu kimi yanaşılaraq onun real məzmunu arxa plana keçirilir. Bu zaman ümumi səciyyəli mücərrəd əmr (göstəriş) kimi normanın qüvvəsi ilə normanın konkret münasibətlərdə realizəsi arasındakı fərqlər aradan qaldırılır.

Hüququn anlayışı əksər hüquqşünasların fikrincə obyektiv əlamətlərlə şərtlənir. Hüququn anlayışı normalar sistemi kimi dövlətin idarəsində əks olulnur və obyektiv sosial reallığı əks etdirir. O digər ictimai hadisələrdən öz keyfiyyəti ilə fərqlənir, xüsusilə hüquqi göstərişlərin konkret münasibətlərdə realizəsi. Bu obyektiv fərq bəhs edilən anlayışın təcrübi əhəmiyytini müəyyən edir. Məcəlləşdirmə və sistemləşdirmə kimi vacib proseslər davranış qaydaları olan normalarla əlaqədardır. Hüququn tətbiqi haqqında yalnız o zaman danışmaq olar ki, biz hüquq subyektiv hüquq və hüquq öhdəliyi təsbit edən normaya müvafiq meydana gələn normaların sistemi kimi fərqləndirək. Hüquq tətbiqi spesifik,

[58] Халфина Р.О. Общее учение о правоотношении. М., 1974, с.99

mürəkkəb və böyük təcrübi əhəmiyyətə malik olan proseslərdən biridir. Bəzi müəlliflər hesab edir ki, hüquq münasibətlərinin hüququn anlayışına daxil edilməsi hüququn normaların sistemi kimi özünəməxsusluğunu aradan qaldlırır.[59] Bu həm də mürəkkəb və böyük təcrübi əhəmiyyət kəsb edən prossesin nəzəri bazasını da əlindən alır.

İkincisi, hüquq münasibətləri norma ilə normanın tənzim etdiyi real ictimai münasibətlər arasındakı vasitəçi həlqə kimi şərh edilir. Daha dəqiq desək bu mövqe Y.K.Tolstoya məxsusdur. O, belə nəticəyə gəlmişdir: "Hüquq münasibətləri hüquq norması ilə hüquqi tənzimetmənin predmetini təşkil edən ictimai münasibətlər arasında vasitəçi həlqədir."[60] Beləliklə, Y.K.Tolstoy hüquq münasibətlərini real lkonkret münasibətlərdən ayırır. Bu zaman iki suala cavab tapmaq lazımdır:

1. Əgər hüquq münasibətləri yalnız vasitəçi həlqədirsə, o zaman norma ilə tənzimlənən ictimai münasibətlər özü hansı formada çıxış edir, onun forma və məzmunu nədən ibarətdir?

2. Əgər hüquq münasibətləri yalnız vasitəçi həlqədirsə, o büründüyü ictimai münasibətlərdən ayrılıqda mövcud ola bilərmi?

Y.K. Tolstoya görə hüquq münasibətləri onun forması olan real ictimai münasibətlərdən ayrı ola bilər. Çünki, Tolstoya görə hüquq münasibətləri həmişə ideoloji münasibətlərdir. Bununla yanaşı, yuxarıda qeyd edildiyi kimi, əgər real ictimai münasibət hüquqla tənzim edilən münasibətdirsə, o, yalnız hüquq münasibəti kimi çıxış edə bilər. Abstraktlaşdırılmış hüquqi forma isə ictimai münaibətlərin tənzim edilməsi haqqında tam və dolğın informasiya verə bilməz.

Hüquqi tənzimetmə mexanizmini tədqiq edən S.S. Alekseyev bu prosesin üç mərhələsini müəyyən etmişdir:

1. İctimai münasibətlərin zəruri hüquqi vasitələrlə nizamlanması
2. Normanın fəaliyyəti nəticəsində hüquq münasibətləri meydana gəlir və ya dəyişir.

---

[59] Л.С. Явич. Право и общественные отношения. М., 1971, с. 54-56; Д.А.Керимов. Филоофские проблемы права. М., 1972, с. 171-175
[60] Ю.К. Толстой. К теории правоотношения. Л., 1959, с.31

3. Hüquqi tənzimetmənin məqsədlərinə nail olduğu subyektin hüquqlar və hüquqi öhdəliklərin realizəsi konkret şəxslərin davranışı ilə həyata keçirilir.[61]

Bu sxemə əsasən hüquqi tənzimetmə mexanizmini açıqlamaq olar. Subyektiv hüquq və hüquqi öhdəliklərin realizəsi hüquqi tənzimetmənin mərhələsi kimi nəzərdən keçirilir. S.S. Alekseyev hesab edir ki, hüquqi tənzimetənin bu mərhələsi öz məqsədlərinə konkret şəxslərin davranışı ilə həyata keçirilməklə nail olur. Bu davranış heç də həmişə norma ilə müəyyən edilən hüquq və vəzifələrin məcmusu ilə üst-üstə düşmür.

Hüquqi tənzimetmə sistemində hüquq münasibətlərinin yerinin müəyyən edilməsini yalnız o zaman tam kifayət hesab etmək olar ki, hüquq münasibətləri təkcə hüquq və vəzifələrin məcmusu kimi deyil, həm də onu hüquqi forma kimi təşkil edən və bu forma ilə real davranışın vəhdəti kimi nəzərdən keçirilsin.

Müəyyən ictimai münasibətləri tənzimləməklə norma aşağıdakıları müəyyən edir: münasibətin iştirakçıları kim ola bilər, münasibət hansı əsaslarla meydana gəlir, iştirakçılar özlərini necə aparmalıdırlar, bu münasibətlər necə xitam oluna bilər. Beləliklə, hüquq norması əsasında münasibətlərin əsası, özəyi təşkil olunur. Həqiqətdə münasibətlər daha zəngindir və bütünlüklə özünəməxsus cəhətlərə malikdir. İctimai münasibət iştirakçılarının hüquq və vəzifələri normanın tələbinə uyğun müəyyən olunur və ictimai münasibətlərin dərinliklərinə nüfuz edən əsası, özəyi təşkil edir.

Məhz buna görə də, hüquq münasibətlərini hər hansı örtük kimi təqdim etmək olmaz. Əgər əsası, özəyi çıxartsaq, o zaman münasibətlər keyfiyyətcə digər normaya malik olacaq. Hüquq münasibətlərinin norma ilə ictimai münasibət arasındakı vasitəçi həlqə formasında təqdim edilərək mücərrədləşdirilməsi yalnız tədqiqat prosesində zəruri olan ikinci dərəcəli məntiqi əməliyyatlardan biridir. Lakin, bu yanaşma ilə hüquqi tənzimetmə prosesi bütünlüklə aydınlaşdırılmamışdır.

---

[61] Теория государства и права: Учебник / Под ред. С.С.Алексеева. М., 1998 с. 288

Əgər hüquq münasibətlərini yalnız real münasibətlərin mücərrədləşdirilməmiş məntiqi forması kimi  təqdim etsək və əgər hüquq münasibətlərini münasibətlərin real vəziyyətinə uyğun norma nodelinə bənd etsək o zaman normanın tələbinə uyğun olan real davranışa münasibətdə problemlər yaranmaz. Doğrudur normanın tələbi ilə real davranışın arasındakı mümkün ziddiyyət yalnız hüquqların həyata keçirilməsi və öhdəliklərin icra olunması zamanı yarana bilər.

Hüquq münasibətlərinin xarakteristikasında əgər belə demək mümkünsə, onun özəyinin müəyyən edilmə dərəcəsi, münasibət modelinin detallaşdırılması tədbirləri həmin münasibətlərdə zəruri olan davranış aktlarının bütün məcmusu ilə müqayisədə onun forma və məzmununun tədqiqatda mühüm əhəmiyyət kəsb edir. Hüquq münasibətlərinin özəyinin müəyyən edilmə dərəcəsi və münasibət modelinin detallaşdırlması tədbirlərini norma ilə  müəyyən edilmiş hüquq və öhdəlikləri münasibəti bütünlüklə ehtiva edən real davranış aktı ilə müqayisə etməklə aşkara çıxartmaq olar. Belə nisbət obdyektiv və subyektiv şərtlərlə müəyyən olunur. Obyektiv şərtlər dedikdə, bu və ya digər münasibət növünün xarakteri, subyektiv şərtlər dedikdə isə dövlətin idarəsi, bu münasibətlərin tənzimlənməsinin detallaşdırma dərəcəsi haqqında onun qərarı nəzərdə tutulur. Subyektiv və obyektiv cəhət bəzən bir-biri ilə ziddiyətə girə bilir və bu zaman hüquq normasının  hökmü, təsir qüvvəsi gücsüz görünür.

İctimai münasibətlərin xarakterinin özü onun hüquqi tənzimlənməsinin detallaşdırılmasının böyük və ya kiçik imkanlarını müəyyən edir. Belə ki, prossesual münasibətlər öz mahiyyətinə görə daha dolğun detallaşdırma tələb edir. Əgər söhbət ədalət mühakiməsinin aparılmasından gedirsə, qanun zəruri fəaliyyəti, başa çatmış və başa çatmamış hər bir əməlin hüquqi nəticəsini müəyyən etməlidir.[62]

Beləliklə, münasibətlərin detallı tənzimılənməsini bir tərəfdən münasibətlərin xarakterinin özü tələb edir, digər tərəfdən münasibətlərin məzmunu yalnız ümumi əlamətlərə və ya ayrı-ayrı məsələlər üzrə tənzimlənməni zəruri edir.

---

[62] Халфина Р.О. Общее учение о правоотношении .М., 1974, с. 104

Münasibətlərin hüquqi tənzimlənməsinin detallaşdırma dərəcəsi mahiyyətcə dövlətin iradəsi ilə münasibət iştirakçılarının iradəsinin nisbətini müəyyən edir. Belə ki, onların davranışı normada nəzərdə tutlan hüquq və vəzifələrlə müəyyən olunur və iştirakçılar tərəfindən hansı qərarların qəbul ediləcəyi təyin olunur. Burada bir şeyi qeyd etmək vacibdir. Hüquq münasibətlərinin iştirakçılarının davranışı həmişə onların iradəsini əks etdirir. Onlar norma ilə nəzərdə tutulan öhdəlikləri icra edərkən, norma ilə nəzərdə tutulmuş hüquqları həyata keçirərkən, qərar qəbul edərkən fiziki və hüquqi şəxslər öz iradələrini əks etdirir.

Lakin, iradənin əks olunmasının yuxarıda göstərilən üç vasitə ilə bir-birindən fərqlənir. Birinci halda, iradə kənardan verilən əmri, buyuruğu və ya qərarı icra etməyə istiqamətlənir. Münasibət iştirakçıları kənardan verilən bu əmr və ya qərarla tam razılaşa bilər və onu öz təşəbbüsləri əsasında icra edə bilərlər. Əksər hallarda məhz belə olur. Məsələn, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 334-cü maddəsi fərariliyə, yəni hərbi qulluqçunun xidmətdən üç aydan artıq müddətə hərbi hissədən və ya xidmət yerindən özbaşına getməsi və ya xidmət yerinə qayıtmaması (gəlməməsi), yaxud müddətindən asılı olmayaraq hərbi xidmətdən boyun qaçırmaq məqsədi ilə hərbi hissəni və ya xidmət yerini özbaşına buraxıb getməsinə və ya xidmət yerinə qayıtmamasına (gəlməməsinə) görə məsuliyyət müəyyən edir. Bu müddəa hərbi qulluqçuların üzərinə passiv vəzifə qoyur. Bu vəzifəyə əksər hallarda riayət olunur. Lakin, bunu diqqətdən qaçırmaq olmaz ki, münasibət iştirakçısı qərarın mövcudluğuna görə deyil, yalnız qərarın onun tərəfindən icrası üçün cavabdehdir. Bu daxili sərhəd tənzimetməni detallaşdırır. Əgər münasibət iştirkçıları bərabərhüquqlu və qərar qəbul etmək üçün tam məlumata malik olan şəxslərdirsə, o zaman qərarın yuxarıdan verilməsi deyil, iştirakçıların özünə həvalə edilməsi daha faydalı və məqsədəmüvafiqdir. Bu müasir dövrdə bazar iqtisadiyyatı yolu ilə iqtisadi inkişafın əsas şərtidir.

Ölkələrin müəyyən edilməsi özündə real davranışa daha çox birbaşa təsir vasitələrini ifadə edir. Münasibət iştirakçılarına müəyyən əməlləri yerinə yetirmək və ya pozulması mənfi nəticələrə səbəb olur. Real həyatda iştirakçıların davranışına müxtəlif və bəzən də bir-birinə zidd olan amillər təsir göstərir. Bu

zaman münasibət iştirakçısı qarşısında seçim imkanı yaranır: o, ya öhdəliyi yerinə yetirərək onun yerinə yetirilməsinə görə mənfi nəticələrə məruz qalmağı və ya öhdəliyi yerinə yetirməməklə, əldə edə biləcəyi faydalardan məruz olmağı və öhdəliyin pozulmasına görə mənfi nəticələrə məruz qalmağı seçə bilər. Buna ən sadə nümunə cinayət əməlinin törədilməsidir. Cinayət törətmiş şəxs cinayət törətdiyinə görə cəzaya məruz qalacağını, azadlığını itirəcəyini və ya müəyyən maddi saksiyaya məruz qalacağını bildiyi halda cinayət törədir.

Belə misalları təkcə cinayət hüququnda deyil, hüququn digər sahələrində də görmək olar. Məsələn, konsessiya müqaviləsinə görə, istehsalçı və ya tacir (tapşıran) ilə sənətkarlıq şəklində müstəqil fəaliyyətlə məşğul olan şəxs (konsessioner) arasında elə bir ümumi razılaşmadır ki, onun əsasında tapşırandan müəyyən malları vaxtaşırı satın almağı, bu malları öz adından və öz hesabına başqasına satmağı və bu zaman malları müəyyən ərazilərdən və müəyyən müştərilərə satmağı öhdəsinə götürür (Azərbaycan Respublikası Mülki Məcəlləsinin 800-cü maddəsi). Əgər o, bu öhdəliyə riayət etməsə, qarşı tərəf məhkəmədə iddia qaldıraraq, öhdəliyin icra edilməsinə görə ona dəyən maddi və mənəvi zərəri tələb etmək hüququna malikdir.

Yuxarıda çəkilən nümunələr onu göstərir ki, öhdəliyin müəyyən edilməsi heç də onun səmərəliliyini təmin etmir. Səmərəliliyin təmin olunması və gücləndirilməsi üçün öhdəliyin icra edilməməsinə görə mənfi nəticələrin baş verməsi və bu nəticələrin ciddi olması zəruridir. Cinayət hüququna münasibətdə bunu Çezare Bekkariyanın cinayətə görə cəzanın labüdlüyü prinsipi ilə ifadə etmək olar.

Davranışa bu cür təsir göstərilməsi münasibət iştirakçılarına müəyyən hüquq verir. Burada söhbət ondan gedir ki, bu hüquq qarşı tərəfin və ya tərəflərin vəzifəsinə həmişə müvafiq gəlirmi? Səlahiyyətli şəxs öz hüququnu həyata keçirmək, müqavilə üzrə üzərinə təəhhüd götürən öhtəliyi icra etməsini tələb etmək imkalnına malikdir. Yuxarıda göstərilən səbəblər ayrı-ayrı hallarda hüququn həyata keçirilməsinə təsir göstərə bilər. İşin digər aspektini qeyd etmək olduqca vacibdir. Belə ki, hüququn həyata keçirilməsi dövlətin maraqlarını əks etdirməyə də bilər.

Dövlət insan və vətəndaşların hüquqlarını tanımaqla, təsbit etməklə birlikdə tərəflərə onun realizəsi haqqında qərarın qəbul edilməsi üçün tam azadlıq verir. bəzi hallarda səlhiyyətli şəxs hüququn realizəsindən mənəvi mülahizələrlə intina edir. Bəzən bu dövlət tərəfindən də təşviq oluna bilər. Bir qayda olaraq dövlət münasibət modelinin tam ifadə olunmasında  və hüququn həyata keçirilməsində bilavasitə maraqlıdır. Məsələn, Azərbaycan Respublikası Konstitusiyasının 56-cı maddəsi seçki hüququnu təsbit edir, 55-ci maddə isə dövlətin idarə olunmasında iştirak etmək hüququnu təsbit edir. Dövlət bu hüquqların həyata keçirilməsində bilavasitə maraqlıdır. Məhz buna görə də seçkilər vaxtı dövlət vətəndaşları seçkidə fəal iştiraka təşviq edir, çağırır. Bunu təkcə konstitusiya hüququnun nümunəsi ilə məhdudlaşdırmaq olmaz. Bu kimi misallar həm mülki hüquqda, əmək və ailə hüququnda, həm də cinayət hüququnda da mövcuddur.

Lakin, əksər münasibətlərdə hüququn həyata keçirilməsi birinci növbədə səlahiyyətli şəxsin, hüquqa malik olan şəxsin qərarından asılıdır. Burada şəxsin iradəsini təşkil edən, onun davranışını motivləşdirən amillər həlledici əhəmiyyətə malikdir.[63]

Hüququn realizəsində səlahiyyətli şəxs maraqlı olmalıdır. Lakin, bu maraq hüququn həyata kelçirilməsinə mane olan digər həvəsləndirmələrlə ziddiyətə girə bilər. Məsələn, Azərbaycan Respublikası Əmək Məcəlləsi işə götürənə üzürsüz səbəbdən işə gəlməyən işçini azad etmək hüququ verir. Lakin, hər hansı bir iş yerində çalışan işçilərdən fərqli olaraq öz sahəsinin mütəxəssisi olan digər işçi, eyni iş üçün digərlərinin aldığından üç qat çox əmək haqqı tələb edərsə, işəgötürən bu hüquqdan istifadə etməyəcək. Bu kimi hallar məhz bu vəziyyət üçün səciyyəvidir. Digər hallarda işəgötürən bu hüququnu asanlıqla reallaşdıra bilər.

Motivasiya öhtəliyin icrasından fərqlənir. Belə ki öhdəliyi icra edən şəxs qərar qəbul edərkən öz əməlinin mənfi nəticələri ilə öhdəliyin pozulmasından əldə edəcəyi mümkün faydanı tutmuşdur. Burada hüququn həyata keçirilməsi zamanı müəyyən faydadan və ya maraqların müdafiəsinin müəyyən vasitələrindən imtinadan söhbət gedir. Öhdəliyin icrası və hüququn həyata keçirilməsi zamanı

[63] Халфина Р.О. Общее учение о правоотношении. М., 1974, с. 110

mövcud olan motivlər bir-birindən fərqlənir. Burada birinci növbədə realizəsi digər maraqlarla ziddiyyətə girməyən tələb hüququnu təşkil edən problem çıxış edir. Hüququn həyata keçirilməsi isə təkcə qanunun ifadə etdiyi həvəsləndirmə imkanları ilə məhdudlaşmır. Bu iqtisadi, mənəvi və digər mülahizələrdən irəli gələn həvəsləndirmə imkanları ola bilər. Bu tənzim olunan münasibətlərin məzmununa nüfuz edərək davranışın motivasiyasına təsir edən bütün mümkün amillərin dərindən tədqiq edilməsini tələb edir.

Qeyd olunduğu kimi norma ilə müəyyən edilən hüquqlar və öhdəliklər tələb olunan davranışı böyük və ya kiçik dərəcədə detallaşdıra bilər. Lakin heç vaxt onun bütün detallarını nəzərdə tuta bilməz. Həmişə münasibət iştirakçılarına qərar qəbul etmək üçün yer saxlanılır, müəyyən imkanlar tanınır. Bu o demək deyil ki, həmin məsələ norma ilə tənzimlənmir və ya normadakı boşluqdur. Bu o deməkdir ki, norma həmin məsələyə münasibətdə qərar qəbul etmək və ya etməmək azadlığını şəxslərə həvalə edir. Qeyd olunan halda hüquq forma kimi münasibətlərin məzmununa təsir edir.

Baxmayaraq ki, bu bilavasitə təsir deyil, lakin olduqca böyükdür. Real davranış konkret münasibətlərdə davranış aktlarının və əməllərin qarşılıqlı əlaqəsini özündə ifadə edir. Onlar arasında üzvi əlaqə olmalıdır. Normada nəzərdə tutulan tələbləri həyata keçirmək üçün konkret hüquq və öhdəliklərin məzmununu təşkil etməyən davranış aktları və əməllər və ya ümumi formada təsbit edilən hüquq və öhdəliklərin məzmununu təşkil edən davranış aktları və əməllər hüquq və öhdəliklər formasınmda təsbit edilən davranış aktları və əməllərlə üzvi və məntiqi baxımdan əlaqəli olmalıdırlar. Beləliklə hüquq münasibətlərinin forması onun məzmununa yalnız müəyyən davranış aktlarını, əməlləri, hərəkət və ya hərəkətsizliyi hüquq və öhdəlik kimi  təsbit etməklə təsir etmir, həm də hüquq və öhdəlikdə müəyyən edilən davranış aktları kompleksinin məntiqi əlaqəsini şərtləndirir.

Hüquq münasibətlərinin real ictimai münasibət kimi vahid forma və məzmunda tədqiq olunması  zamanı hüququn xalqın iradəsini əks etdirmək kimi yalnız xaricdən təsirini deyil, həm də dolayı yolla insanların real davranışının

əsaslandırılması kimi daxildən təsirini görə bilərik.[64] Bu prosesdə idarənin normada əks olunan real konkret şərtlərə, tətbiq edilən hüquqi vasitələrin səmərəliliyinə, davranışın əsaslarında hüququn yerinə müvafiqliyi aşkara çıxır. Hüquq münasibətlərinə bu cür yanaşmadan belə nəticəyə gəlmək olar ki, normada müəyyən edilən hüquq münasibəti modeli insanların real davranışına müvafiqdir. Məhz burada, forma və məzmunun mübarizısi prosesində bu tip münasibətlərin hüquqi tənzimlənməsinin səmərəliliyi, müsbət və mənfi cəhətləri aşkara çıxır. Formanın pozulması, məhv edilməsi öhdəliyin icra edilməsində və hüququn həyata keçirilməsindən imtinada öz əksini tapır. Bütün müvafiq hallarda hüquq münasibətlərinin onun daxili vəhdətində tədqiq olunması qanunvericililyin və onun tətbiqi təcrübəsinin təkmilləşdirilməsi üçün imkanlar verir.

Hüquq münasibətlərinin forma və məzmununun vəhdətdə tədqiq edilməsi hüquq münasibətlərinin hüququn anlayışına daxil edilməsinin lazım olub olmaması sualına cavab verir. Baxmayaraq ki,  hüquqla tənzimlənən ictimai münasibətlərin məzmunu müxtəlifdir. Bu münasibətlər həm də ideoloji və maddi münasibətlərdir. Onlar insanların müxtəlif fəaliyyət sferalarında həyata keçirilir. Buna görə də hüquq münasibətləri bütövlükdə hüquq sferasına aid edilə, daxil edilə  bilməz. Hüquqi formanın real məzmunundan ayrılması əvvəldə qeyd etdiyimiz kimi real əlaqəni əks etdirmir.

Hüquq ədəbiyyatında hüququn hüquq münasibətlərini tənzimləməsi polemikaya səbəb olmuşdur. Y.K.Tolstoy qeyd edir ki. Hüquq norması yalnız faktiki ictimai münasibətləri tənzimləyir.[65] Digər müəlliflər isə “hüquq münasibətlərini tənzimləyir” formulasını düzgün hesab etmir.[66] Bu barədə ikinci fəslin birinci paraqrafında ətraflı bəhs etmişik, ona görə də təkrarçılığa yol verməyə lüzum yoxdur.

Hüquq münasibətləri forma və məzmunun vəhdəti kimi hüquqi tənzimetmənin predmeti ola bilməz, o, hüquqi tənzimetmənin nəticəsidir. Hüquq ictimai münasibətləri onlara hüquq münasibəti forması verməklə tənzimləyir. Bəzən ona

---

[64] Протасов В.И. Правоотношение как система. М., 1991, с. 30
[65] Ю.К.Толстой, К тоерии правоотношения. Л.,1959. с. 29-30
[66] Халфина Р.О. Общее учение о правоотношение. М., 1974. С. 112-113.

əsaslanırlar ki, hüquqi forma artıq mövcud olan hüquq münasibətlərini tənzimləyə bilər. Lakin bunu ciddi dəlil kimi qəbul etmək olmaz. Bu halda mövcud olmayan hüquq münasibətləri tənzimlənir, lakin həmin ictimai münasibətlərin hüquqi tənzimlənməsi dəyişilir. Münasibətin artıq keçmişdə tənzim edilməsi faktı ictimai münasibətin özünün tənzimetmə predmeti olması barədə müddəanı heç cür dəyişdirə bilməz. Tənzimetmənin predmeti hüquq münasibəti formasında çıxış edən konkret reallıq deyil.

# Nəticə

Vətəndaşların və ictimai təşkilatların arasındakı real həyat münasibətlərinin müxtəlif tərəfləri və xarici ifadə formaları var. Bu münasibətlər əxlaqi, siyasi, milli, dini, o cümlədən, həm də hüquqi ola bilər. Hər bir ictimai münasibət ictimai maraqların və tələbatların müxtəlif elementlərini özündə birləşdirə bilən mürəkkəb və çoxtərəfli hadisədir. Onlardan bəziləri hüquqi nizamasalma ilə əhatə olunur, bəziləri isə yox. Belə ki, ailə həyatında, bir qayda olaraq, maddi qarşılıqlı əlaqələr hüquqi forma alır; insanların dinə, özünə münasibəti hüquqi tənzimlənmə sahəsindən kənarda yerləşir.

Burdan belə çıxır ki, heç də bütün ictimai münasibətlər, özü də tam həcmdə hüquqi forma qazanmır. Hüquq münasibətləri insanlar arasındakı konkret həyat münasibətlərinin o aspektlərini əks etdirir ki, onlar hüquq normaları ilə müəyyən edilir. Bundan əlavə heç də bütün ictimai münasibətlər obyektiv cəhətdən hüquqi ola bilmir. Münasibətlər yalnız o halda hüquqi xarakter daşıya bilərlər ki, söhbət sosial əhəmiyyətə malik davranış aktları barədə olsun. O ki, qaldı hərəkəti əks etdirməyən fikirlərə və hisslərə, onların hüquqi təbiəti haqqında danışmaq olmaz.

Hüquq nəzəriyyəsində hüquq münasibətlərinin anlayışına birmənalı yanaşılmır. Onun anlayışına çoxlu təriflər verilmişdir. Hüquq münasibətlərinin anlayışına olan yanaşmaları geniş və dar yanaşmalar kimi təsnif etmək olar.

Geniş mənada hüquq münasibətləri iştirakçılarına qarşılıqlı hüquq və vəzifələrin verildiyi sosial qarşılıqlı əlaqənin xüsusi forması kimi başa düşülür. Burada hüquq münasibətlərinin həyata keçirilməsi dövlət tərəfindən deyil, iştirakçıların özləri tərəfindən təmin olunur.

Dar mənada hüquq münasibətlərinə hüquq normasının faktiki ictimai münasibətlərə təsiri nəticəsində meydana gələn müxtəlif növ sosial münasibətlər kimi baxılır.

Hüquq münasibətlərinə müxtəlif müəlliflər tərəfindən verilən anlayışları belə yekunlaşdırmaq olar ki, birmənalı surətdə hüquq ictimai münasibətləri tənzim etmir demək olmaz. Çünki, biz hüququn tənzimedici funksiyasının olduğunu bilirik. Əgər o, ictimai münasibətləri tənzim etmirsə, o zaman hansı tənzimləyici

funksiyadan danışmaq olar. Lakin, hüquq ictimai münasibətləri tənzim edir deyərkən biz məhz hüququn öz-özünə onları müəyyən etməsini nəzərdə tutmuruq. Hüquq onların təbii vəziyyətindən irəli gələn şərtlər əsasında onların nizamlılığı üçün müəyyən çərçivələr tanıyır. Başqa sözlə, hüquq norması real ictimai münasibətlərin tələblərini düzgün əks etdirməlidir. Əgər biz bu zaman həmin çərçivələri süni müəyyən etməyə çalışsaq, artıq bu mövcud münasibətləri qabaqlamaq və ya onlardan geri qalmaq olacaq. Bu isə hüquqi tənzimləmənin səmərəliliyinə, effektivliyinə xələl gətirəcək.

Hüquq normasının real ictimai münasibətlərin tələblərini düzgün əks etdirməməsinin nə kimi mənfi nəticələrlə başa çatmasına sovet dövlətinin mülkiyyətin yalnız ictimai formasına rəvac verməsi, xüsusi mülkiyyət məhdudlaşdırması və ya qadağan etməsi misalı ilə aydınlıq gətirmək olar.

Ümumiyyətlə, hüquq münasibətləri elə bir mürəkkəb hüquqi kateqoriyadır ki, ona nə qədər anlayış versək də qüsurlardan xali olmayacaq. Hegelin dili ilə desək hər bir anlayış məhduddur. Hüquq münasibətlərinin anlayışının əhəmiyyəti ondadır ki, o, hüquqi forma geyindirilmiş konkret, real ictimai münasibətləri ifadə edir və bu bir növ normanın realizəsidir.

Hüquq münasibətlərinin anlayışı bilavasitə hüququn səmərililiyi ilə bağlı olan məsələdir. Qeyd etmək lazımdır ki, hüququn səmərəliliyinə həsr edilmiş tədqiqat işlərində hüquq münasibətlərinin anlayışı aşkar göstərilmir. Bir qayda olaraq söhbət hüquq normasının səmərəliliyindən gedir və sonuncu bilavasitə sosial proses və nəticələrlə əlaqələndirilir. Nəzərə almaq lazımdır ki, bu zaman hüquq münasibətləri üçün yer qalmır. Hüquq münasibətlərinin tədqiq edilməsi hüquq normasının qəbul edilməsinə müsbət və ya mənfi təsiri dəqiq müəyyən etməyə imkan verir. Bu isə ictimai münasibətlərin daha effektli tənzim edilməsi üçün lazımdır.

Konkret hüquq münasibətlərinin bir tərəfdən norma ilə, digər tərəfdən real davranışla əlaqəli şəkildə analiz edilməsi prosesində effektivliyin tədqiq olunması bilavasitə hüquqa münasibətdə daha çox məlumat verə bilər. bu isə bizə real ictimai münasibətlərin normada nə dərəcədə düzgün modelləşdirilməsini və

adekvat hüquqi təsir vasitələrinin tətbiq edilib-edilməməsi müəyyən etməyə kömək edir. Konkret hüquq münasibətini norma modeli ilə müqayisə etdikdə, həmin münasibət modelinin tipik (səciyyəvi) əlamətlərinin modeldə nə dərəcədə ətraflı nəzərdə tutulmasını və həmin münasibəti hərtərəfli tənzim edib-etməməsini aydınlaşdırmaq olar.

Forma və məzmunun vəhdəti hər bir məzmun üçün müəyyən formanın zəruriliyini şərtləndirir. Cəmiyyətdə hüquq münasibətləri şəklində olan münasibətlər üçün forma dövlət tərəfindən hüquq normasına verilir. Buna görə də dövlətin normayaradıcılıq fəaliyyətində ictimai münasibətlərin ayrı-ayrı növlərinə münasibətdə onları hüquqi formalarının qanunauyğunluqlarını daha dəqiq hesaba almaq qarşıda duran vacib vəzifələrdəndir. İctimai münasibətlərin ayrı-ayrı növlərinin öz formaları ilə əlaqəsini nə qədər tam və dərindən öyrənsək, hüququn bu münasibətlərin inlkişafına məqsədyönlü təsiri üçün daha çox imkanlar əldə edərik. Onu da yaddan çıxartmaq olmaz ki, elmlərin inkişafı münasibətlərin inkişafını proqnozlaşdırmaq üçün imkanlar yaradır. Bunun sayəsində təkcə münasibətlərin bu səviyyəsinə deyil, həm də inkişaf prespektivinə uyğun formalar meydana gəlir.

Hüquqauyğun davranış forması olan hüquq münasibətlərinin təhlili haqqında söhbət edərkən, məhz bu zaman qanunvericiliyin təkmillərşdirilməsi üçün zəngin məlumat əldə edə biləcəyimizi vurğulamaq vacibdir.

Hüquq münasibətləri müvafiq ictimai münasibətin forması kimi hüquq norması ilə təşkil edilir. Forma və məzmunun müvafiq olmasının ciddi qanunauyğunluğu onda əks olulnur ki, o, onun forma və məzmununa aid obyektiv və real tələbləri düzgün əks etdirməlidir. Əgər bu tələblər düzgün dərk olunubsa, hüquqi kateqoriyaların dilinə düzgün köçürülübsə, digər qarşılıqlı əlaqəli formalarla uzlaşırsa, bu zaman hüquq norması ictimai münasibət forması üçün adekvat model yaratmış olur.

# Resume (İngiliscə xülasə)

The relationships between citizens and public organizations encompass various aspects and expressions, including moral, political, national, religious, and legal dimensions. Each social relationship is a complex phenomenon that combines different elements of public interests and demands. While some of these relationships are regulated by legal frameworks, others are not. For instance, in family life, material interactions typically acquire a legal form, while people's attitudes toward religion lie outside legal regulation.

It is essential to recognize that not all social relationships acquire a complete legal form. Legal relations reflect specific aspects of interpersonal relationships that are defined by legal norms. Furthermore, not all social interactions can be objectively categorized as legal. They only achieve a legal character when they involve socially significant actions. Thoughts and feelings that do not manifest as actions cannot be discussed in legal terms.

Legal theory offers varying definitions of legal relations, which can be classified into broad and narrow approaches. Broadly, legal relations are understood as a specific form of social interaction where mutual rights and duties are assigned to participants. In this case, the execution of these legal relations is ensured by the participants themselves, rather than by the state. Narrowly, legal relations are seen as types of social relationships arising from the influence of legal norms on actual social interactions.

Legal norms do regulate social relations, and their regulatory function cannot be dismissed. If law does not regulate social relations, its purpose becomes questionable. However, this does not mean that law independently determines these relations. Instead, it recognizes the inherent conditions of their natural state and provides frameworks for order. Thus, legal norms must accurately reflect the demands of real social relations.

The implications of legal norms misaligning with social relations can lead to negative outcomes, as illustrated by the Soviet state's restriction on private

property. Overall, legal relations are a complex legal category that, despite numerous definitions, remains imperfect. Their significance lies in expressing concrete social relations in a legal form, essentially realizing a norm.

The understanding of legal relations directly correlates with the effectiveness of the law. Research often focuses on the effectiveness of legal norms without adequately addressing legal relations, which is crucial for determining their impact on social processes. Analyzing specific legal relations in connection with norms and actual behaviors provides valuable insights into how well social interactions are modeled in law.

The relationship between form and content is essential, as every form necessitates a corresponding content. Legal relations, structured by legal norms, highlight the necessity for the state to consider the lawful characteristics of different types of social relations in its legislative activities. The more thoroughly we understand the connection between various social relations and their respective forms, the better the law can purposefully influence their development. The advancement of scientific knowledge enables predictions about the evolution of these relations and the emergence of appropriate legal forms.

In conclusion, the analysis of legal relations as forms of lawful behavior offers critical information for improving legislation and ensuring that legal norms accurately represent the demands of society.

# Ədəbiyyat siyahısı:

## A) Xüsusi ədəbiyyat siyahısı:


Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. B., 1988.

Leist O.E. Sanctions in Soviet law / O.E. Leist - M.: Gosyurizdat, 1962.

Алексеев С.С. Теории права. М., 1995

Алексеев С.С. Проблемы теории права. М., 1972

Жалинский А., Рёрихт А. Введение в немецкое права. М., 2001.

Гегель Г. Сочинения. Том I. М.,1970

Гегель Г. Соч. Том VII. М.,1970

Гегель Г. Работы разных лет. М., 1973

Гегель Г. Философия права. М., 1995

Дудин А.П. Диалектика правоотношения. Саратов, 1983

Иванова З.Д. Законность –основа правоотношений в деятельности милиции. М.,1987

Иоффе О.С.Спорные вопросы учение о правотношениие//В книге: Иоффе О.С. Гражданское право. Избранные труды. М., 2000.

Counter K., The Framework and Functions of English Law, Oxford, 1998,

Керимов Д.А. Филоофские проблемы права. М., 1972

Коркунов Н.М., Лекции по общей теории права изд.9-е. СПб,1914

Крапивенский С.Э. Общий курс философии. Волгоград.1999.

Казимирчук В.П. Право и методы его изучания. М., 1965.

Казимирчук В.П., Право и соцология. М., 1973

Краткие Философский словарь. Под ред. М.Розенталия и П.Юбина.М.,1952.

Марченко М.Н. Курс сравнительного правоведения. М., 2002

Маркс К., Энгельс Ф. Соченения. Том 2.; Том 4.; Том 14.; Том 19.; Том 23

Маркс К. вя Енъелс Ф. Сечилмиш ясярляри, Ы ъилд

Никитинский В.И., Эффективность норм трудового право М., 1968

Общая Теория права. Курс лекций / Под ред. В.К. Бабаева. Нижний Новогород, 1993.
Остроумов Г.С., Правовое осознание действительности, М.,1969
Ортега-и Гассет Х. Что такое философия? М.,1991
Основы государства и права: Учебник / Под ред. О.Е. Кутафина. М., 1999
Пионтковский А. А. Уголовные право. Часть общая. М. 1925
Пионтковский А. А. Правоотношения в уголовном праве. «Правоведение». 1962.№2.С.86-96
Протасов В.И., Правоотношение как система, М., 1991
Петражитски Л.И., Теория права и государства в свяъи с теорие нравственности, Т.2,СПб,1907.
Российкая юридическая энциклопедия .М.,1999.
Сабо И.. Социалистическое право. М., 1964
Тархов В.А. Гражданское правоотношение. Уфа, 1993.
Толстой Ю.К., К тоерии правоотношения. Л.,1959
Ткаченко Ю.Г. Методологические вопросы правоотношения. М.,1980
Теория государетва и права. Учебник. Под ред. М.Н.Марченко. М., 2001.
Теория государства и права. Курс лекций/ Под ред. Н.И. Матузова, А.В. Малько. М.,2000.
Теория государства и права. Учебник/ Под ред. проф. М. Корельского и проф. В.Д.Перевалова.М., 2000
Теория государства и права: Учебник / Под ред. С.С.Алексеева. М., 1998
Теория государства и права: Учебник / Под ред. В.В. Лазарева. М., 1997
Теория государства и права: Учебник . О.Ф. Скакун. Харков, 2000
Халфина Р.О. Общее учение о правоотношение. М., 1974
Хропанюк И.Н. Теория государства и права: Учебное пособие / под ред. В.Г.Стрекозова. М., 2002
Шершеневич Г.Ф., Философия права, Т.1, М., 1911
Шебанов А.Ф. Форма советского прова. М., 1968
Явич Л.С. Право и общественные отношения. М., 1971

Явич  Л.С. Общая теория права. Л.,1976.

## B) Normativ hüquqi aktların siyahısı:

1) Azərbaycan Respublikasının Konstitusiyası. Bakı 1995
2) Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsi. Bakı, 2006
3) Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı 2006
4) Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsi. Bakı, 2006
5) Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı 2006
6) Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı 2006
7) «Beynəlxalq xüsusi hüquq haqqında» Azərbaycan Respublikasının 1999-cu il tarixli qanunu
8) «Normativ hüquqi aktlar haqqında» Azərbaycan Respublikasının 26 noyabr 1999-cu il tarixli qanunu



Azər Nağıyev böyük akademik və peşəkar təcrübəyə malik yüksək ixtisaslı beynəlxalq hüquqşünas, ekspert, təlimçi, mediator və yazardır. O, İllinoys Texnologiya İnstitutunun Çikaqo-Kent Hüquq Məktəbində Hüquq üzrə Magistr (LL.M.) dərəcəsinə, həmçinin Azərbaycan Bakı Dövlət Universitetindən hüquq üzrə bakalavr və LL.M dərəcəsinə malikdir.

Azər 2009-cu ildə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü olmuşdur və praktik hüquqşünas kimi böyük təcrübə toplamışdır. Onun təcrübəsi mülki, cinayət, immiqrasiya və digər hüquq sahələrini əhatə edir. O, müştəriləri təmsil etdiyi Avropa İnsan Haqları Məhkəməsi (AİHM) daxil olmaqla, həm yerli, həm də beynəlxalq məhkəmələrdə çoxsaylı işlərdə əhəmiyyətli uğurlar əldə edib. O, Azərbaycanda AİHM-də müştəriləri uğurla təmsil edən 26 hüquqşünasdan biridir.

Azər karyerası ərzində müxtəlif təlim proqramlarında, konfranslarda və seminarlarda fəal iştirak edib. Qeyd edək ki, o, təlimçi kimi Azərbaycan Vəkillər Kollegiyasının üzvləri, habelə prokurorlar və hakimlər üçün Avropa İnsan Hüquqları Konvensiyasının və AİHM-in presedent hüququnun tətbiqi ilə bağlı təlimlər vermişdir.

Bundan əlavə, 2018-ci ildən Azər Avropa Şurasının HELP onlayn platformasında sertifikatlı 61 təlimçidən biridir.

Azər təlimçi və expert kimi, hüquqşünaslar, hakimlər və prokurorlar üçün çoxsaylı təlim kurslarında iştirak etmiş, TV və mediada bir sıra mövzularda çıxışlar etmişdir. Eyni zamanda, o, bir sıra elmi məqalə və kitabların müəllifidir.